GÜLÜSTAN
Qadın-Ailə jurnalı
№2-May-İyun

Təsisçi:
Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı

Redaktor:
Lamiyə HACIYEVA

Redaktor müavini:
Mirvari NAĞIYEVA

Redaksiya heyəti:
Mirvari Nağıyeva
Nabat Eminova
Nərgiz Bağırova
Nərgiz Tanrıverdiyeva

Dizayn:
Elsevər ƏHMƏDOV

ÜNVAN: GÜRCÜSTAN,
Qardabani şəhəri,
Kolxoz k. №4.
Tel: (+995) 551 47 48 98
(+995) 511 16 46 96

e-mail:
gulustanjurnali@hotmail.com

Əxix oxucular!

Hər birinizi bu isti yay günündə xoş gördük. Jurnalımızın bu sayında da sizlərin görüşünə biri birindən maraqlı mövzularla gəldik. Bu sayımız Məhərrəm ayına və Aşurara təsadüf etdiyi üçün elə ilk yazılarımızı da bu mövzularla əlaqəli yazmağa qərar verdik. Bilirik ki, sizlər də ən az bizim qədər bu mövzularda bilgilisiniz. Ancaq yenə də təkrarda fayda var deyib qələmimizi işə saldıq.

Bu sayımızda bir neçə məqaləmizi də qüsurlu insanlara həsr etdik. Düşünürəm ki, bu mövzu cəmiyyətimizin yaralı yönüdür. Düzdür, bizim insanımız hər zaman xəstə və qüsurlu insanlara qarşı xüsusi diqqət və qayğı ilə yanaşıb, yanaşır da. Lakin kapitalist ideyaların inkişaf etdiyi bu zəmanədə insanlarda eqoizm duyğuları inkişaf etdiyi üçün bəzi həssas insanlara qarşı incidici davranışlar sərgiləyə bilirik. Bu davranış onlara kobud davranmaqdan ya da pislik etməkdən ibarət deyil. Sadəcə onların varlığını unuduruq və bu onlar üçün böyük çətinliklər yaradır.

Unutmamalıyıq ki, heç kim ömrünün sonuna qədər sağlam və güclü olacağına dair sığortalanmamışdır. Ya da insanlar doğularkən xəstə olaraq doğulmurlar. Hazırda dünyada olan əlil ya da xəstə insanların əksəriyyəti uşaqlıqdan və hətta ömürlərinin çox hissəsini tam sağlam yaşadıqları halda, bir anda möhtac vəziyyətə düşmüşlər. Bu hala düşmədən əvvəl sağlamlığın qədrini bilməli və əlimizdən gəldiyi qədər gücsüzlərə yardım və dəstəyimizi əskik etməməliyik.

Özümüz ya da övladlarımız həssas insanlara qarşı çox diqqətli olmalıyıq. Onların sevgiyə və qayğıya bizdən daha çox ehtiyacı var. Biz öz ehtiyaclarımızı ödəyə bildiyimiz halda, onlar başqalarına möhtac olaraq həyatlarını yaşayırlar. Bu da onları yetərli qədər minnət duyğusuna salır. İstər fiziki, istərsə də əqli sağlamlığını itirən insanlar Allah-Təala üçün çox dəyərlidir. Onları sevindirən Allah-Təalanı sevindirər. Onlar bizə deyil, biz onlara təşəkkür etməliyik ki, onlara qarşı insanlıq vəzifəmizi yerinə yetirərkən dualarını qazanaq.

Əziz oxucu!

Yalnız xeyir-dualar qazanmaq diləyi ilə Allaha əmanət olun!

İÇİNDƏKİLƏR

4

HİCRƏT-YÜKSLİŞƏ GEDƏN YOL

Lamiyə Hacıyeva



6

AŞURA GÜNÜNÜN ƏHƏMİYYƏTİ VƏ FƏZİLƏTİ

Mirvari NAĞIYEVA



8

ONLARIN YERİNDƏ BİZ DƏ OLA BİLƏRİK!

f.f.d. Gülnarə SEYİDOVA



22

Könül iqlimindən incilər

Osman Nuri Topbaş



24

DUA

Nəzrin Hüseynova



Cənnət Xürfəsi
Samirə MAHMUDOVA.....10

"ZAHİR BİZİM SƏHRAMIZ, BİZ DƏ ONUN ŞƏHƏRİYİK"
Məryəm DƏMİR.....12

QARÇİÇƏYİ - SƏBİR VƏ ŞÜKÜR...
Əlif GÜLDAR.....14

ALLAHIM, MƏNİ AZLARDAN ET!
Fatimə ZƏHRA.....16

QƏNAƏT TƏHSİLİ
Nəslihan GÜNƏŞ.....18

ƏL-MUZİL
Aygün MƏMMƏDZADƏ.....23

PEYĞƏMBƏRİMİZƏ (S.Ə.S.) MƏKTUB
Gülbəniz MEHDİYEVA.....26

BARDAN SÖHBƏTƏ
Xədicə ŞAHİN.....28

ONLARIN SEVGİSİ
Nəzrin HÜSEYNOVA.....30

SÜFRƏ ƏDƏBİ 32

DƏM QAZINDAN ZƏHƏRLƏNMƏNİN PROFİLAKTİKASI
Vüqarə MƏMMƏDOVA.....34

LƏZZƏT DÜNYASI 36

TƏBİİ DƏRMAN – MƏKKƏGÜLÜ
Kəmalə HÜSEYNOVA.....38

SÜD ANASI (RƏDA)
Sevinc VƏKİLOVA.....40



Qəlblər Qaralmasın

Gözü görən insanlar var ki, qəflətdə olduqları üçün qəlbləri qaralmış, səfil və nadan olaraq yaşayırlar, onlar hikmət və həqiqətlərə kor olmuşlar. Belələri haqqında ayəyi-kərimədə:

"...Həqiqətən, gözlər kor olmaz, lakin sinələrindəki ürəklər (qəlb gözü) kor olar" *(Həcc, 46) buyurulmuşdur.*

Lamiyə Hacıyeva

HİCRƏT-YÜKSƏLİŞƏ GEDƏN YOL



Yeni bir hicri ilə girərkən Müsəlmana yaraşan, keçmişin hesabını edərək gələcəyi tənzimləməkdir. Günahdan-tövbəyə, kibirdən-təvazöyə, üsyandan-itaətə, düşmənlikdən-qardaşlığa, cəhalətdən-elmə, pislikdən-yaxşılığa hicrət etməkdir.

Hicrət, Əsri Səadətdə yaşanmış və bitmiş bir tarix deyildir. Bu gün də nə qədər Müsəlman, yurdundan doğma torpaqlarından gözyaşları ilə ayrılmaq məcburiyyətində qalaraq və özünə ənsarlıq edəcək yaxşılıq timsalı insanlarla qarşılaşmağı arzu etməkdədirlər. Bizlərə düşən isə hicrətin ildönümündə bu gerçəyi bir dəfə daha xatırlayaraq zülmün və ədalətsizliyin sona çatması üçün yeri gəldiyində əlimizlə, dilimizlə, elmimizlə, səy göstərməkdir.

Hicrət, hər cür çətinliyi arxasında buraxaraq, çətinlikdən uzaqlaşaraq yaxşılığa və xeyirə doğru addım atmaqdır. Necəki Sevimli Peyğəmbərimiz (s.ə.s.) hicrətə belə işarə etməkdədir: *«Müsəlman, əlindən və dilindən digər Müsəlmanların zərər görmədiyi adamdır. Mühacir isə, Allahın qadağanlarını tərk edən kimsədir.»*

Hicrət, Hz. Məhəmməd (s.ə.s.) və digər Müsəlmanların təzyiqlərdən xilas olmaq üçün ٦٢٢ ilində Məkkədən Mədinəyə köç etmələrinə verilən addır. Bu köçün nəticəsində Mədinədə Mədinə Müqaviləsi ilə indiki vaxtda İslam Dövləti olaraq bilinən dövlətlərdən ilki qəbul edilən Mədinə Şəhər Dövləti quruldu.

İkinçi Əqəbə Beətindən sonra müşriklər, müsəlmanların sığınıb özlərini qoruyacaq bir yerə hicrət edəcəklərini öyrənincə, etdikləri əziyyətləri tamamilə artırdılar. Müsəlmanlar bu dözülməz işgəncələr səbəbiylə Məkkədə yaşaya bilməyəcək hala gəldikləri üçün, hallarını Peyğəmbər Əfəndimizə ifadə etdilər və hicrət üçün icazə istədilər.

Allah Elçisi, Allahın icazəsi ilə Müsəlmanlara Mədinə yollarını işarə etdi və belə buyurdu:

«Bundan belə sizin hicrət edəcəyiniz şəhərin, iki quru daşlıq arasında xurmalıq bir yer olduğu mənə göstərildi.» (Buxari, Kefalet, ٤)

Onlara Ənsar ilə, yəni Mədinəli Müsəlman qardaşlarıyla qucaqlaşmalarını əmr etdi və:

«Allah Təala sizin üçün qardaşlar və hüzur tapacağınız bir diyar lütf etdi!» buyurdu.

Bundan sonra Müsəlmanlar, müşriklərə hiss etdirmədən hazırlandılar, bir-birlərinə kömək edərək gizlicə hicrət etməyə başladılar. Axın-axın Mədinəyə gedən Müsəlmanlar əslində müşriklərdən qorxduqları üçün deyil, İslamın təməllərini ən möhkəm bir şəkildə atmaq üçün hicrət etdiklərinin şüuru içində idilər.

Hicrət çarəsizcə bir qaçış olaraq anlaşılmamalıdır.

Mədinə, Mühacirlər üçün bir hicrət yurdu, digər mömin qardaşlarıyla birləşib yığışaraq, çıxardıldıqları torpaqlarda Allahın dinini hakim etmək üçün yerləşdikləri bir qərargahdır.

Mühacirlər, bunun üçün mal-mülk, qohum və başqa nələri varsa Məkkədə buraxırdılar. Kimisi

gizli, kimisi açıqdan açığa Mədinə yollarına düzəldi.

Məkkənin gün keçdikcə boşaldığını görən müşriklər, yavaş-yavaş gedişatın özləri üçün xeyirli olmadığını qavramağa başladılar. Dərhal Darun-Nədvədə toplandılar. Yığıncağa Nəcidli olduğunu söyləyən bir qoca da qatılmışdı. Bu qoca, insan surətinə girmiş şeytandan başqası deyildi.

Nə edəcəklərini uzun-uzun müzakirə etdilər. Peyğəmbər Əfəndimizi tutub həbs etmək və ya Məkkədən sürüb çıxarmaq kimi bir çox təkliflər irəli sürüldü. Təkliflərin hamısına şeytan qarşı çıxdı. Sonunda ən alçaq bir qərarda fikir birliyinə gəldilər:

Allah Rəsulunu öldürmək! Bu təklifi, dövrünün Fironu olan Əbu Cəhil belə dilə gətirmişdi:

«Hər qəbilədən bir silahlı gənc tapaq. Gənclərin hamısı Ona bir anda hücum etsinlər. Birlikdə vurub öldürsünlər. Beləcə Ondan xilas olaq, rahata qovuşaq! Bu plan baş tutduğunda onun qanı bütün qəbilələrə dağılmış olar! Abdı Mənaf Oğulları isə, bütün qəbilələrlə döyüşməyə güc çatdıra bilməzlər, qan pulu qəbul etməyə razı olarlar. Biz də, Abdı Mənaf oğullarına Onun qan pulunu ödəyərik!» dedi.

Nəcidli bir qoca görünümündəki şeytan:

«_Bax bu bu adamın sözü ən gözəl sözdür! Bundan daha məqbul bir təklif ola bilməz!» dedi. (İbni Hişam, II, ٩٥-٩٣)

Bu qərar alındığı zamanda Allah Elçisi, Məkkədə sanki tək qalmışdı. O, ümmətinə düşkün bir Peyğəmbər olaraq əvvəl onları göndərmiş, özü də Mühacirlərin gerisini gözləmək kimi bir hərəkəti seçmişdi. Müqəddəs səfərdə ən yaxın, ən sadiq yoldaşı olacaq olan Hz. Əbubəkr hicrət üçün icazə istədiyində:

«-Səbr et!» buyurmuş və əlavə etmişdi:

«-Bəlkə Allah sənə xeyirli bir yol yoldaşı verər!» (İbni Hişam, II, ٩٢)

Buna çox sevinən Hz. Əbubəkr, hicrətə hazır olmaq üzrə səkkiz yüz dirhəmə satın aldığı iki dəvəni evində dörd ay etina ilə bəslədi. (Buxari, Menakıbul-Ensar, ٤٥)

Müşriklər, almış olduqları qərarı tətbiq üçün hərəkətə keçdiklərində, Allah Elçisi də Allahdan hicrət üçün əmri almışdı:

De: ***"Ey Rəbbim! Daxil olacağım yerə məni xoşluqla daxil et, çıxaracağın yerdən də məni xoşluqla çıxart və Öz dərgahından mənə yardım edən bir güc ver!"*** (əl-İsra, ٨٠)

Bu ayeyi kərimədən başqa, Cəbrayıl (ə.s.) da müşriklərin qurduqları hilələri Hz. Peyğəmbərə bildirmiş və: *«-Bu gecə yatağına yatmayacaqsan!»* demişdi. (İbni Hişam, II, ٩٥)

Bunun üzərinə Hz. Peyğəmbər, gündüz hər kəsin istirahət etdiyi günorta istisində Hz. Əbubəkrin yanına gedib hicrət əmrinin gəldiyini bildirdi.

Hz. Əbubəkr soruşdu:

«-Birlikdəyikmi ey Allahın Elçisi!»

Rəsulullah:

«-Bəli, bərabərik!» buyurdular.

Hz. Əbubəkr bu cavabdan elə məmnun və sevincli oldu ki, gözündən axan sevinc damlaları onun könül aləmini ən gözəl bir şəkildə əks etdirirdi.

Daha sonra Peyğəmbər Əfəndimiz Hz. Əlini çağıraraq hic¬rəti xəbər verdi və üzərində olan əmanətləri sahiblərinə təslim etməsi üçün Onu vəkil təyin etdi. Çünki Məkkədə qiymətli bir əşyası olan hər kəs saxlaması üçün onu Rəsulullaha əmanət etməyən kimsə yox idi.

Müşriklərin planlarına tədbir olaraq da belə buyurdu:

«-Ya Əli! Bu gecə mənim yatağımda sən yat! Bu paltarımı da üstünə ört; qorxma! Sənə xoşlanmayacağın bir şey isabət etməyəcək!» (İbni Hişam, II, ٩٥, ٩٨)

Burada diqqət çəkən digər bir xüsus da Hz. Əlinin Rəsulullaha olan təslimiyyətidir.

Rəsulullah Əfəndimizin yola çıxdığını xəbər alan Mədinəlilərdə həyəcan zirvədə idi. O mübarək yolçunun yolunu həsrətlə gözləyirdilər. O nurlu karvanı qarşılamaq, o əbədi səadət karvanının kərəmindən bir qırıntı ala bilmək üçün şəhərin xaricinə qədər çıxıb gözləyirdilər.

Nəhayət bir səs bütün Müsəlmanların sinələrində se¬vinclə əks-səda tapdı:

«Gözlənilən mübarək yolçu gəlir!»

Bu müjdəli xəbərlə təkbir səsləri bütün Mədinəni ağuşuna aldı.

O andan etibarən qiyamətə qədər meydana gələcək hadisələri qeyd edəcək bir *«hicrət təqvimi»* başladırdı.

Mədinə, bu gündən sonra, İslamiyyətin inkişaf və tərəqqi məkanı və aynası oldu. Küfrün qaranlıq üzü, bu hicrətlə son tapdı. Məscidi Nəbəvi və Kuba Məscidi, ülvi bir məna qazanıb məhşərə qədər bu mübarək hicrətin qüdsi məkanı və xatirəsi olaraq qaldı.

Mirvari NAĞIYEVA



AŞURA GÜNÜNÜN ƏHƏMİYYƏTİ VƏ FƏZİLƏTİ

Hicri 1444-cü ilə bizləri çatdıran uca mövlamıza həmd və şükürlər olsun. Cənabı Haqq bu ilimizi ümməti Məhəmməd üçün xeyirlərə, ibadətlərə vəsilə etsin. Hicri ayların ilki olan Məhərrəm ayı, uca Rəbbimizin " haram" olaraq adlandırdığı aylardan olmasıyla bərabər bir çox rəhməti, bərəkəti və gözəlliyi də içində saxlamaqdadır. Məhərrəm ayının ən fəzilətli və gözəlliklərlə dolu olan günü isə 10-cu günü olan Aşura günüdür. Aşura gününün Allah qatında çox önəmli və fəzilətli yerinin olduğunu Qurani Kərimin Fəcr sürəsinin "10 gecəyə and olsun ki, " ayət – i kəriməsinin təfsirindən öyrənməkdəyik. Bəzi təfsirlərə baxdıqda bu 10 gecənin Məhərrəm ayının birinci günündən Aşura gününə qədər keçən gecələr və günlər olduğu bildirilməktədir.

Uca Rəbbimiz bu gecələrə and içərək bərəkətini və fəzilətini bizlərə bildirmişdir.

AŞURA GÜNÜNDƏ NƏLƏR BAŞ VERMİŞDİR ONLARA NƏZƏR SALAQ:

Həzrət Adəmin (a.s) töbəsi bügündə qəbul edilmiştir. Demək olar ki bugün tövbə - istiğfar günüdür.

Həzrət Nuhun (a.s) gəmisinin tufandan sağlam şəkildə qurtarıldığı gündür.

Həzrət İbrahimin (a.s) Nəmrudun atəşinə atılıb uca Rəbbimizin lütf və ikramıyla qurtarıldığı gündür.

Həzrət Musanın (a.s) Fironun zülmündən qurtarıldığı gündür.

Həzrət Əyyubun (a.s) xəstəlik və sıxıntıla-

rından qurtarıldığı gündür.

Peyğəmbər əfəndimizin nəvəsi həzrət Hüseynin Kərbəlada qəddarcasını şəhid edildiyi gündür.

AŞURA GÜNÜNDƏ HANSI İBADƏTLƏRİ ETMƏMİZ LAZIMDIR ?

Peyğəmbər əfəndimiz belə buyurmuşdur: *" Bir kimsə Aşura günü oruc tutarsa, Allah ona min şəhid savabı yazar"*

Aşura günündə oruclu olan insan üçün yer və göy əhlinin qazandığı qədər savab vardır.

Bir gün bir nəfər peyğəmbər əfəndimizin yanına gəlib soruşur: Ya Rəsulullah ramazan ayından sonra hansı ayda oruc tutmağımızı məsləhət görürsən?

"Ramazandan sonra oruç tutmaq istəyirsənsə Məhərrəm ayında tut" deyə peyğəmbər əfəndimiz buyurur, ancaq yəhudilərlə eyni gündə oruc tutmayın. Buna görə də Məhərrəm ayının 9-10-cu günlərində və yaxud 10 -11- ci günlərini oruclu keçirmək daha fəzilətlidir. Çunkü o Allahu-Təalanın ayıdır. Allah Süleymana (a.s) mülkü- dövləti Aşura günü verdi. Aşura günü bir xəstəyi ziyarət edənə bütün insanları ziyarət etmiş kimi savab yazılır.

Bir çox peyğəmbərin həyatında önəmli yerə sahib olan Aşura günü İslam tarixində də hz. Peyğambərin nəvəsi – hz. Hüseyn və ailə üzvlərinin on Məhərrəm günü Kərbəlada şəhid edildikləri gün olaraq da xatırlanmaqdadır.

Hz. Hüseyn 55 yaşında Sinan bin Ənəs adlı bir xain tərəfindən şəhid edilmiştir. Bu qəddar və zülmün arxasında əməvi xalifəsi Yezid onun Kufə valisi ibni Ziyad vardır. Hz. Hüseyn şəhidlər mükafatını almış ve ən uca mərtəbələrə çatmıştır.

AŞURA GÜNÜ OXUNACAQ DUALAR

Aşura günündə oxunacaq dualar çoxdur ancaq bir neçəsini yazmaq istədim.

"hasbinullahi və niməl-vəkil, niməl-mövla və nimənnəsir. Ğufranəkə rabbəna və ileykəl- məsir.

313 dəfə "lə iləhə illə əntə subhənəkə inni kuntu minəzzalimin" oxunur.

Allahu - Tela Aşura günü etdiyimiz dualarımızı qəbul etsin. AMİN



f.f.d. Gülnarə SEYİDOVA
g.seidova@yahoo.com

Onların Yerində Biz də ola bilərik!



Xəstə övladına çarə axtarmaq niyəti ilə həkimə gedən bir ana övladının müayinəsindən sonra "Sənin uşağın iflicdir. O nə gəzəcək, nə də danışacaq. Sən ən yaxşısı apar onu zibilliyə at!"- deyən həkim, görəsən, insanlıq hisslərini də zibilliyəmi atıb? Övladının halına yanan bir ana həkimin deyəcəyi hər kəlməyə həsrət ikən, həkimin uşağa verdiyi dəyər ananı sözlərlə ifadə oluna bilməyəcək şəkildə sarsıtmışdı. Amma Uca Yaradan həmin həkimin sözlərinə inad o balacaya xeyir qapıları açır. Artıq həmin uşaq danışır, anasının yardımı ilə gəzə də bilir. Gün gələcək o balaca arzuladığı kimi həkim olacaq, neçə-neçə xəstələrin dərdinə dərman olacaq. Ona görə də hər kəs diplom almaq üçün imtahana girməzdən əvvəl insanlıq imtahanlarından keçsələr, öz peşələrini daha gözəl və vicdanla icra etmiş olarlar.

Qüsurlu olmaq, normal bir insanın şəxsi ya da sosial həyatında özü etməli olduğu işləri, fiziki və ya əqli qabiliyyətlərin anadangəlmə ya da sonradan qazanılan hər hansı bir çatışmazlıq nəticəsində edə bilməməsidir. İnsanın fiziki qabiliyyətlərindəki qüsurlar və bunların hərəkət qabiliyyətində səbəb olduğu əskiklik və çətinlik, onu toplumun digər fərdlərindən fərqli edir. Bu fərqlilik qüsurlu insanların üzləşdiyi ayrı-seçkiliyin də əsil səbəbidir. Məlum olduğu kimi hər cür ayrı-seçkiliyin təməlində fərqli olmaq, yəni *"vərdiş edilməmiş xüsusiyyətlərə"* sahib olmaq vardır. Fiziki qabiliyyətlərdəki pozuqluqlar və bunların yaratdığı məhdudiyyətlər insanı toplumdan uzaqlaşdırır. Toplumdan kifayət qədər dəstəyin olmaması, mövcud olan ayrıseçkilik qüsurlu insanların cəmiyyətə bir fərd olaraq qatılmasının qarşısını alır.

Ailə, uşaqların sağlam yetişdirilib inkişaf edə biləcəyi, önəmini heç zaman itirməyən ictimai bir qurumdur. Xüsusilə ilk davranış şəkilləri, ictimai həyata aid qayda və rollar, əsas vərdişlər, sevinclər, sevgilər, günlük münasibətlər ailədə öyrənilməlidir. Uşağın qüsuru müəyyən olunduqdan sonra, ailə üzvlərinin uşağı və onun qüsurunu qəbul etməsi çox vacibdir. Ancaq ailələr bu müddət ərzində bəzi mərhələlərdən keçməli olurlar. Bu mərhələləri aşağıdakı kimi sadalamaq mümkündür.

1. Şok: Övladının qüsurlu olduğunu öyrənən ailələrdə ən çox müşahidə olunan reaksiyalardan ilkidir. Əsasən bu hal ağlamaqla, reaksiyasız qalmaqla, özünü çarəsiz hiss etmə şəklində müşahidə olunur.

2. Rədd etmək: Bəzi ana-atalar övladlarının qüsurlu olduğunu qəbul etmək istəmirlər, qorunma mexanizmasına əl ataraq rədd edirlər. Bu, qarşılaşdıqları hadisə səbəbi ilə duyduqları qorxudan qaynaqlanır. Uşağın və özlərinin gələcəkdə qarşılaşacaqları narahatlıqlar, qayğılar, məsuliyyətlər, *"Biz indi nə edəcəyik?"*- sualına tapılmayan ca-vablar, rəddetmə davranışının müşahidə olunmasına səbəb olur.

3. İztirab çəkmək və depressiya: Ümu-miyyətlə ana-atalar qüsurlu uşağa sahib olmaları səbəbi ilə pərişan olurlar. Əksər valideynlər üçün qüsur, xəyallarında yaşatdıqları ideal uşağın yox olmasına bərabərdir. Belə bir vəziyyətdə çəkilən

iztirab ən çox sevilən birinin vəfatı zamanı yaşanan hisslərə bərabərdir. İztirab çəkmək həqiqətin qəbul edilməsini asanlaşdıran bir duyğu olaraq görülür. Depressiya isə, əsasən, stress yaşama nəticəsində meydana çıxır. Əksər ana-atalar yüklədikləri məsuliyyətlər qarşısında hər şeyə güclərinin çatmayacağı düşüncələri ilə depressiyaya düşürlər. Əzab çəkmək və depressiya nəticəsində ailələrdə *"geriyə addım"* ya da *"insanlarla münasibətlərdən qaçınma"* davranışları müşahidə olunur.

4. Günahkarlıq hissi: Qüsurlu uşağa sahib olan hər ailədə, əsasən, stressdən yaranan davranışlardır. Valideynlərin uşaqlarında görünən fiziki, yaxud əqli qüsura özlərinin səbəb olduqlarını düşünmələrindən, ya da bəzi yanlış davranışları nəticəsində Allah-Təala tərəfindən cəzalandırılmış olmalarına inanmalarından qaynaqlanır. Bu düşüncə onları psixoloji problemlərə qədər apara bilir.

5. Qərarsızlıq: Qüsurlu uşağa sahib olan bəzi valideynlərdə vəziyyətə dərhal vərdiş etmək görüldüyü halda, bəzilərində bu müddət daha çox vaxt alır. Mövcud olan hal ilə barışmazlıq ailə üzvlərinin bir-birini gü-nahlandırmasından qaynaqlanır.

6. Üsyan etmək: Əsasən, valideynlərdə yaşadıqları hadisəni qəbuletmə müddətində onları stressə salan duyğulardır. *"Bu hadisə niyə mənim başıma gəldi?", "Niyə bizim uşağımız belə oldu?"*- sualları meydana çıxır. Bu hal və davranışları həkimlər, müəllimlər, psixoloqlar belə, yaşadıqları faciələr qarşısında sərgiləyə bilirlər.

7. Utanma: Hər ana-ata öz uşağının uğur qazanmasını, özünü sübut etməsini arzu edir və bundan da qürur hissi yaşayır. Təəssüflər olsun ki, qüsurlu uşaqların cəmiyyətdə qəbul edilməməsi, hətta lağa qoyulması, insanların yazığı gəlməsi, hər kəsin qorxmasına səbəb olması və rədd edilməsi kimi davranışlar yaşanır. Bütün bunların qarşısında ailə, qüsurlu övladından ya da valideynindən utana bilir. Tez-tez insanlarla görüşməyib həmin doğmalarını evdən çıxarmamağı belə üstün tuturlar.

8. Uzlaşmaq: Bu davranışları sərgiləyən insanlar, əsasən, *"Əgər uşağıma bir çarə tapsan, hayatımın sonuna qədər sənə minnətdar olaram"* düşüncəsində olurlar. Uşağın dərdinə çarənin tapılması, ailələri hər cür addımı atmağa səbəb olur.

Qüsurlu olmaq, normal bir insanın şəxsi ya da sosial həyatında özü etməli olduğu işləri, fiziki və ya əqli qabiliyyətlərin anadangəlmə ya da sonradan qazanılan hər hansı bir çatışmazlıq nəticəsində edə bilməməsidir. İnsanın fiziki qabiliyyətlərindəki qüsurlar və bunların hərəkət qabiliyyətində səbəb olduğu əskiklik və çətinlik, onu toplumun digər fərdlərindən fərqli edir.

9. Qarşılaşdıqları vəziyyətlə barışmaq: Ana-atanın uşaqları ilə daha düzgün münasibətlər qura biləcəklərini anlamaları ilə başlayan bir zamandır. Ailə üzvlərinin hər birinin ailədə olan qüsurlu doğmalarını qə-bul etdikdən sonra qayğılar, qorxular azalır, utanmaq kimi yanlış hisslərdən azad olurlar. Artıq ailə birlikdə nələr edə biləcəyini düşünür və planlamağa başlamışdır. Belə halda uşağa da öz qüsuru ilə barışma və onunla daha gözəl bir həyat yaşama şansı veriləcəkdir. Ailələrin ilkin dönəmdə bu hallardan keçməsi təbiidir. Ancaq ailənin bu mərhələlərdən hər hansı birində qalması gələcəkdə psixoloji problemlərə səbəb olaraq problemin qəbul edilməsində, çarələr axtarma yolunda çətinlik yaradacaqdır.

Qüsurlu insanların psixoloji, təhsil və həyatlarını normal davam etdirə bilmə bacarıqları baxımından digər insanlardan geri qalmaları çox normaldır. Bizim vəzifəmiz onları günahlandırmaq, ayıblamaq, cəmiyyətdən uzaqlaşdırmaq deyil. Onlara dəstək olmaq, onları yalnız qoymamaq, əhval-ruhiyyələrini yaxşılaşdırmaqdır. Bu bizim insanlıq vəzifəmizdir. Hər insan, hər an qüsurlu ola bilər. Onların hər kəsdən çox dəstəyə ehtiyacı olduqlarını unutmamaq lazımdır...

Samirə MAHMUDOVA



Cənnət Xürfəsi

Dinimizdə ən mühüm və bir o qədər də savab sayılan əməllərdən biri də xəstə olan bir möminə baş çəkməkdir. Allah-Təala özünə aid olan haqlarla bərabər, insan haqlarına qarşı diqqətli davranmağımızı, onların qeydinə qalmağı, ehtiyaclarını qarşılamağı və bu qəbildən əməlləri də əbədi səadətimiz üçün şərt qoşmuşdur. Bu kimi haqlar insanın Rəbbinə qarşı fərz olan ibadətlərindən sonra ikinci dərəcəli haqlardandır. Belə ki, insan maddi imkanı və zamanı olduğu halda bu haqlara riayət etməzsə, qiyamət günündə Allahın hüzurunda cavab verməli olacaq. Əbu Hüreyrədən (r.a.) Rəsuli-Əkrəmin (s.ə.s.) belə buyurduğu rəvayət olunur: *"Üç xislət var ki, bunların hamısı bir müsəlmanın yerinə yetirməli olduğu vacib haqlardandır: Xəstəyə baş çəkmək, dəfndə iştirak etmək və asqırıb Allaha həmd edən adama "yərhamukəllah" demək".*

Allah-Təala zəif, xəstə və miskin görünən kimsəsiz bəndələrinə qarşı möminləri qayğıkeş və mərhəmətli olmağa çağırır və belə insanlara yardım etməyi əsirgəyənləri isə axirətdə qınayacağını da Peyğəmbərinə (s.ə.s.) bir qüdsi hədisdə bildirir. Belə ki, Əbu Hüreyrədən (r.a.) gələn rəvayətə görə Rəsulullah (s.ə.s.) belə demişdir: *"Qiyamət günü Allah öz bəndəsinə belə buyuracaq: "Ey bəndəm! Səndən yemək istədim, Mənə yemək vermədin. O deyəcək: "Ey Rəbbim! Sən Aləmlərin Rəbbi olduğun halda necə ola bilər ki, məndən yemək istəyərsən?" Allah buyuracaq: "Filan qulum səndən yemək istəmişdi, sən də ona yemək*

Rəsulullah (s.ə.s.) daima xəstə olan möminlərə baş çəkər və bunu səhabələrinə də əmr edərdi. Hədislərin birində Allah Rəsulu (s.ə.s.) demişdir: "Müsəlman qardaşına baş çəkən kimsə onun yanında oturanadək Cənnət xürfəsində gəzişmiş sayılar.

vermədin. Məgər bilmirdin ki, onu yedirtsəydin, bunun mükafatını Mənim yanımda tapacaqdın?" Sonra Allah buyuracaq: "Ey Adəmoğlu, səndən su istədim, Mənə su vermədin". İnsan: "Ey Rəbbim! Mən sənə necə su verə bilərdim ki, Sən Aləmlərin Rəbbisən!" Allah buyuracaq: "Filan bəndəm səndən su istəmişdi, sən isə ona su vermədin. Məgər bilmirdin ki, ona su versəydin, mükafatını Mənim yanımda tapacaqdın?" Sonra Allah buyuracaq: "Ey Adəmoğlu! Mən xəstələndim, sən isə mənə baş çəkmədin". Bəndə deyəcək: "Ey Rəbbim! Sən Aləmlərin Rəbbi olduğun halda, mən sənə necə baş çəkə bilərdim?" Allah buyuracaq: "Filan qulum xəstələnmişdi sən ona baş çəkmədin. Məgər bilmirsən ki, ona baş çəksəydin bunun mükafatını Mənim yanımda tapardın?" (əl-Buxari, əl-Ədəbul Mufrad, 2569)

Rəsulullah (s.ə.s.) daima xəstə olan möminlərə baş çəkər və bunu səhabələrinə də əmr edərdi. Hədislərin birində Allah Rəsulu (s.ə.s.) demişdir: "Müsəlman qardaşına baş çəkən kimsə onun yanında oturanadək Cənnət xürfəsində gəzişmiş sayılar. Qardaşının yanında oturduğu zaman onu rəhmət bürüyər. Xəstə qardaşını gündüz ziyarət edərsə, yetmiş min mələk axşamadək ona xeyir-dua diləyər, gecə vaxtı ziyarət edərsə yetmiş min mələk səhərədək ona xeyir-dua diləyər. Səhabə: "Ey Allahın Rəsulu, Cənnət xürfəsi nə deməkdir? Rəsulullah (s.ə.s.): *"Cənnətin bir yerə yığılmış meyvələridir"*- buyurdu (Əbu Davud, Sünən, 3099).

Rəsulullah (s.ə.s.) böyük-kiçik demədən, cavan-yaşlı olduğuna baxmadan xəstə və halsız olan möminləri ziyarət edər, onların şəfa tapması üçün dua edərdi. Peyğəmbərimizə (s.ə.s.) xidmət edən yəhudi bir uşaq var idi. Bir gün bu uşaq xəstələndi. Bunu eşidən Allahın Rəsulu (s.ə.s.) ona baş çəkməyə getdi. O, uşağın baş tərəfində oturdu və ona *"Müsəlman ol!"*- dedi. Uşaq atasının üzünə baxdı. Atası ona: *"Əbul Qasıma itaət et!"*- dedi. Uşaq İslam dinini qəbul etdi. Sonra Peyğəmbərimiz (s.ə.s.) onun yanından çıxdı və: *"Onu oddan xilas edən Allaha həmd olsun!"* - dedi (əl-Buxari, 1356).

Bu hədis bizlərə bir neçə əhəmiyyətli məsələni izah edir. Xəstəyə baş çəkməyin bir müsəlmanın digər müsəlman üzərində olan haqlarından olduğunu qeyd etmişdik. Eyni zamanda xəstəyə baş çəkməyin əhəmiyyətli olan xüsuslarından biri də onda iman zəifliyi varsa, onun üçün dua etmək, xəstə yatağında ikən Allaha qarşı asi olan davranış ortaya qoymasının ona axirəti üçün zərərli olacagını xatırlatmaqdır. Çünki xəstəliklərə və müsibətlərə səbir etmək bəndənin günahlarının kəffarəsinə səbəb olur. Bundan başqa Allaha imanı tam olmayan, gah iman edib, gah da üsyan edən kimsələrə Allahın varlığını, axirətin də haqq olduğunu başa salmaq, onun ölmədən öncə hidayətinə vəsilə olmaq və axirətə mömin olaraq köçməsinə səbəb olmaq da vacib və savab sayılan saleh əməllərdən biridir. Əsasən də xəstə olan bu insan qohumdursa, ona qarşı göstərilən diqqət və qayğı insana iki dəfə çox savab qazandırar.

Xəstə insana baş çəkərkən ediləcək müstəhəb əməl xəstənin ehtiyacı ola biləcəyi şeyi ona təmin etmək, onun yanında çox oturaraq onu yormamaq və gözəl, ürəkaçan hadisələrdən söhbət salaraq onu sağalması üçün ruhlandırmaq və Rəsuli-Əkrəmin etdiyi kimi dua etməkdir. İbn Abbas (r.a.) rəvayət edir ki, Peyğəmbər (s.ə.s.) xəstəyə baş çəkdikdə onun baş tərəfində oturub yeddi dəfə belə deyərdi: *"Əs-əlullahəl-Azim, Rabbəl - arşil- azim ən yəşfiyəkə!"* Bu dua əgər xəstənin təyin olunan əcəli çatmayıbsa, şəfa tapmasına səbəb olardı.

Biz də sevimli Peyğəmbərimizin bu duası ilə bütün xəstələrimizə Böyük Ərşin Sahibi olan Allah-Təaladan şəfa diləyir, hər bir kəsə xeyirli ömür və can sağlığı arzulayırıq.

Məryəm DƏMİR



“Zahir bizim səhramız, biz də onun şəhəriyik”

Cənabı-Haqq biz qullarını yaradıb dünya həyatına göndərməzdən əvvəl bizdən soruşmayıb:

Qaşın nə rəng olsun?

Gözün nə rəng olsun?

Boyun necə olsun?

Cənabı - Haqq bizi qarşılıqsız yaratdı, yəni bu dünyaya gələrkən heç bir əvəz ödəmədik. Hadi ismi-şərifi ilə də biz aciz qullarına hidayət bəxş etdi. Bu dünya həyatı içərisində yaratdığı qullarını da müxtəlif imtahanlardan keçirdi. Fiziki qüsurun olması könül dünyasına təsir etsəydi Rəsulullah (s.ə.s.) səhabələri ilə bu qədər çox maraqlanmaz, Cənnət müjdələri bu qədər açıq olmazdı.


Rəsulullah (s.ə.s.) qüsurlu səhabələrə müsbət ayrı-seçkilik tətbiq edən ilk insandır. Peyğəmbərimizin həyatını, döyüşlərini oxuyarkən, dinləyərkən bu səhabələr haqqında məlumatlara rast gəlirik.

Peyğəmbərimizin (s.ə.s.), bəzi bədəni qüsurları olduğu üçün cəmiyyət içində olmaqdan narahat olan və buna görə səhrada yaşamağı seçən Zahir adında bir səhabəyə səhradan bəzi bitkiləri yığıb, Mədinə bazarında onunla birlikdə satışa çıxarmağı təklif etməsi də diqqət çəkir. Bazardakı alış-verişdə Zahirə kömək edən Peyğəmbərimiz (s.ə.s.) ətrafdakılara da *“Zahir bizim səhramız, biz də onun şəhəriyik”* - deyərək hər zaman xoş sözlər söyləmişdir. İstifadə etdiyimiz ifadələr bizim qarşımızdakı insana verdiyimiz dəyərə görə dəyişir. Peyğəmbərimiz bu ifadələrlə səhabələrinin könlünü fəth etmişdir.

Mədinə bazarında həmin səhabə Peyğəmbərimizi (s.ə.s.) bir küncdə gözləyərkən, Peyğəmbərimiz (s.ə.s.) ona arxadan səssizcə yaxınlaşır və gözlərini bağlayaraq onunla zarafatlaşır. Peyğəmbərimizin (s.ə.s.) o günə qədər heç kimə bu cür məsafəsiz davranmadığını görən ətrafdakı müsəlmanlar, bu maraqlı mənzərəni seyr edirlər. Allah Rəsulu (s.ə.s.) bunu fürsət bilərək yüksək səslə: *“Bir qulum var. Satıram. Onu məndən kim alar?”*- deyə zarafatını davam etdirir. Zahir: “Ey Allahın elçisi, beş qəpik etməz bir şikəst köləni kim alar? - deyincə, zarafat bu andan etibarən bitir. Peyğəmbərimiz (s.ə.s.) bütün ciddiliyi ilə ətraflarına yığılmış insanlara səslənərək belə deyir:

“Ey Zahir, and olsun ki, Allah və Allahın Rəsulu qatında sənin dəyərin qiymətsizdir! Bunun üçün biz də səni sevirik”.

Qüsurlu səhabələrdən qısa boyu və incə ayaqları ilə diqqət çəkən Hz. Abdullah ibn Məsudun bədəninin bütün çəlimsizliyinə baxmayaraq, Qureyş müşriklərinin olduğu Kəbəyə



getmiş və orada açıq olaraq Quran oxumuşdur. Böyük işgəncə görən İbn Məsud sağalan kimi bütün xəbərdarlıqlara baxmayaraq, yenə eyni qəhrəmanlığı göstərmişdir.

Son nəfəsinə qədər bədənini bürüyən bir xəstəliklə yatalaq və baxıma möhtac halda otuz il yaşayan Hz. İmran ibn Hüseyn, "Bu ağrılara necə dözürsən?" - deyən yoldaşına, "Mənim haqqımda sağlamlıq və xəstəlikdən hansı Allahın xoşuna gələrsə, mənim xoşuma gələn də odur! Otuz ildir özümdə böyük bir rahatlıq tapmışam" – deyə bilirdi. Bu səbir sayəsində Hz. İmran elə mənəvi yüksəklik əldə edəcəkdi ki, mələklərin təqdisini eşidəcək hala gələcəkdi. Mələklər də, təsəlli olsun deyə ona hər gün salam gətirəcəkdi.

Rəsulullah (s.ə.s.) kor və Məkkədə ilk iman edənlərdən biri olan Abdullah ibn Ümmi Məktumu Mədinəyə insanlara Quran öyrətməsi üçün göndərmişdir. Mədinəli Bəra ibn Aiz (r.a.) deyir ki:

"Bizə ilk hicrət edən kəslər Musab ibn Umeyr ilə İbni Ümmi Məktumdur. Bunlar (Mədinədə) xalqa Quran öyrədirdilər" (Buxari, Mənakibul-Ənsar, 46).

Bilal Həbəşi ilə birlikdə Hz. Peyğəmbərin (s.ə.s.) müəzzinliyini də etmiş İbni Ümmi Məktum (İbn Sad, IV, 207) kor olması, evinin məsciddən uzaqda yerləşməsi və onu məscidə aparacaq kimsəsinin olmadığını bildirərək namazı evində qıla bilməsi üçün Hz. Peyğəmbərdən (s.ə.s.) icazə istəmişdi.

Rəsulullah isə:

-"Sən namaz üçün azan oxunduğunu eşidirsənmi?" - deyə soruşdu. O:

-"Bəli!" - cavabını verdi.

Peyğəmbər (s.ə.s.):

-"O halda dəvətə qarşılıq ver, camaat namazına gəl!" - buyurdu (Müslim, Məsacid, 255; Əbu Davud, Salat, 46).

Bu xəbər camaatla namazın necə əhəmiyyətli olduğunu vurğulamaqla yanaşı, Peyğəmbərimizin gözdən qüsurlu birini cəmiyyətdən təcrid etməyərək, onu camaat içində olmağa təşviqi də xüsusilə diqqət çəkir.

Bununla yanaşı, Hz. Peyğəmbər dəfələrlə Mədinədən çıxdığı zaman, İbni Ümmi Məktumu özünün yerinə camaata namaz qıldırması üçün vəkil olaraq təyin etmişdir. Bu vəzifənin ona on üç dəfə verdiyi nəql edilir.

Qul olaraq axirəti qazanmaq üçün gəldiyimiz bu dünya aləmində halımız nə olursa olsun, hansı mühitdə olmağımızdan asılı olmayaraq "Mənim öhdəmə düşən vəzifə nədir?" - deyə düşünüb daha çoxunu etmək üçün səy göstərməliyik. Cənabı-Haqq qiyamət gəlib çatdığında bizdən dünyada nələr etdiyimizin hesabını aldığı zaman, kimin daha dəyərli olacağını bilmirik.

Bədən üzvləri qüsurlu olan qardaşlarımız bizlərə dua etsin, könüllərimiz qüsurlu olmasın.

Əlif GÜLDAR

Qarçiçəyi - səbir və şükür...

Rəbbimiz yaratdığı hər məkana və zamana ayrı bir gözəllik, incəlik və hikmət vermişdir. İbrət almağı bacaran insan üçün bütün kainat bir təfəkkür məktəbidir.

Qafqaz dağları yaz aylarında yaşıl rəngin bütün tonlarını özündə əks etdirərkən çox gözəl görünür, Qışda isə bəyaz gəlinliyə bürünmüş, saf və təmiz duruşu ilə fərqli bir gözəllik sərgiləyir. Bir həftə sonu rayondan ziyarətdən qayıdırdıq. Qarlı dağlardan keçərkən yol kənarında doqquz-on yaşlarında əlində bir neçə dəstə çiçək olan bir uşaq birdən-birə yolumuza çıxdı. Yoldan keçən maşınları saxlatmaq, onların diqqətini çəkib axşam evinə çörəkpulu aparmağa çalışan bu uşaq, biz dayanarkən bizə tərəf var gücü ilə qaçmağa başladı. Pəncərəni açdığımızda təngnəfəs olmuşdu. Əlindəki qarçiçəyini bizə uzatdı. Bu soyuq qış günündə qarın içindən toplayıb gətirdiyi çiçəkləri almağımız üçün bizi razı salmağa çalışırdı. Çiçəkləri aldıq. Soyuqdan əl-üzü donsa da, üzündən təbəssümü əskik etməyən bu uşaq, üzünü və əllərini göyə qaldırdı və dodaqlarından sevinclə şükür kəlmələri töküldü. Yol kənarında saatlarla o soyuq havada gözlədikdən sonra çiçəkləri satmağın sevincini Rəbbi ilə paylaşan, ruzinin ondan gəldiyini bilən və çətinliklərə səbir edən, Rəbbinə təşəkkür edən bu uşağın halı bizi çox təsirləndirdi. Uşağın bu davranışı səbrin və şükrün gerçək təzahürünü bizə göstərdi.

Qarçiçəyi, səbir, şükür və uşaq...

Bu diyarın və torpağın mayasında olan gözəlliklər...

Şükür - təşəkkür etmək, yaxşılıq edənə qarşı qəlb, dil və davranışlarla hörmət və sayğı göstərməkdir. Gözəl xüsusiyyətlərdən biri olan şükür, insanların Allah-Təala tərəfindən onlara ehsan edilən, saysız nemətlərə, yaxşılıqlara qarşılıq olaraq



sevinc və təşəkkürlərini bildirən söz və davranışlar sərgiləməsidir. Allah-Təalaya şükür etmək, Onun dinini qəbul etmək və dinin hökmlərinə, yəni əmr və qadağalarına uymaq deməkdir. Şükür həm qulluq, həm də insanlıq vəsifəsidir. Yaxşılıq edənə təşəkkür etməyin vacib olduğunu hər ağıllı insan qəbul edər.

Neməti mühafizə və artırmaq üçün bu üç şeyi edən tam şükür etmişdir:

1. Gələn hər neməti Allahdan bilib şükür etmək

2. Allah-Təalanın verdiyi hər şeyə razı olmaq

3. Nemətlərdən istifadə edildiyi müddətdə Allah-Təalaya üsyan etməmək.

Şükür həm əldəki neməti yox olmaqdan qurtarır, həm də yeni nemətlərə qovuşdurur.

Qurani-Kərimdə şükürə təşviq edən bir çox ayə vardır. Bunlardan bəzilərində bildirilir ki, **"Allahdan çəkinin ki, şükür edə biləsiniz"** (Nisə, 123).

"Allah-Təala şükür edənə çox nemət verər" (Fətir, 30).

"Həzrəti İbrahim Rəbbinin nemətlərinə şükür etdi, Rəbbi də onu doğru yola yönəltdi" (Nəhl, 121).

Aza qənaət etmək, çoxu istəməmək deyildir. Malik olduğu imkana razı olmaqdır. Hədisi-şərifdə, *"Kim Allah-Təalanın verdiyi az ruzi ilə razılaşarsa, Allah-Təala da onun az əməlinə razı olar"* - buyurulur.

Allah-Təalanın başda iman neməti olmaqla verdiyi saysiz nemətlərə hər zaman şükür etmək, həmd etmək lazımdır.

Hədisi-şərifdə buyurulur ki, *"İnsanların ən dəyərlisi çox həmd edənlərdir"* (Təbərani).

Başqa bir ayəyi-kərimədə buyurulur ki, **"Mənə şükür edin, nankorluq etməyin!"** (Bəqərə, 152).

Nankorluq, şükür etməmək, nemətləri Allah-Təaladan bilməmək deməkdir. Bir insana hər ehtiyacı verilsə, hər ay kifayət qədər pul, qida hədiyyə olunsa, bu kimsə, o ehsan sahibini hər yerdə, hər kəsə necə mədh edər. Gecə-gündüz onun sevgisini, onun qəlbini qazanmaq istəməzmi? Onu dərdlərdən, sıxıntılardan qorumağa çalışmazmı? Ona xidmət edə bilmək üçün özünü təhlükələrə belə atmazmı? Bunları etməsə, o ehsan sahibinə heç qiymət verməsə, hər kəs onu tənqid etməzmi? Hətta insanlıq vəzifəsini etmir deyə cəzalandırılmazmı?

Yaxşılıq edən bir insanın haqqına belə riayət edilərkən, hər nemətin, hər yaxşılığın həqiqi sahibi olan, hər şeyi yaradan və ehsan edən Rəbbimizə şükür etmək, Onun bəyəndiyi, istədiyi şeyləri etmək nə üçün gərəkməsin. Əlbəttə, ən çox Ona şükür etmək, ibadət etmək lazımdır. Çünki Onun nemətləri yanında başqalarının yaxşılıqları dənizdən damla qədər də deyil. Hətta başqalarından gələn yaxşılıqları da yenə O göndərir. Nemət ümumi olduğu zaman, hər kəsə verilərsə, insan bu nemətin qiymətini bilmir. Görmək böyük nemət olduğu halda, hər kəsdə göz olduğu üçün göz nemətinə hər zaman şükür etmirik. Gənclər yaşlanmadıqca gəncliyin qiymətini bilməz. Xəstə insanlar sağlamlığın qiymətini bilər. Kasıblar zənginliyin qədrini bilər. Həyatın qiyməti isə ancaq son nəfəsdə anlaşılar. Bu halda yaşlanmadan gəncliyin, xəstələnmədən sağlamlığın və ölmədən əvvəl də həyatın qiymətini bilib şükür etməliyik.

Allah dostlarının həyatı şükür mövzusunda bizə gözəl bir nümunədir.

Allah üçün dost olan Şakik Bəlhi ilə İbrahim ibn Ədhəmin bir-birini irşad üçün etdikləri könül söhbətləri əsnasında Şakik Bəlhi soruşur:

- Dolanışığınız necədir?

- Tapanda şükür, tapmayanda səbir edirik.

Şakik Bəlhi:

- Bunu Xorasanın itləri də edir!- deyir. Bu dəfə İbrahim ibn Ədhəm soruşur:

-Bəs siz nə edirsiniz?

Şakik Bəlhi bu cavabı verir:

- Tapsaq şükür edib paylaşırıq, tapmasaq şükür edib səbir edirik.

Cənabı-Haqqın minlərlə lütf və nemətləri qarşısında nə qədər şükür etsək az olduğunun şüurunda bir ömür yaşaya bilmək və son nəfəsimizi üz ağlığı ilə verə bilmək niyazı və duası ilə...

Fatimə ZƏHRA



ALLAHIM, MƏNİ AZLARDAN ET!

Cənabı-Haqqın sonsuz əzəmətinin, ilahi sənət və sifət təcəllilərinin mədh-səna edilməsi "həmd", Onun lütf, nemət və ikramlarına qarşı dillə və ürəkdən mədh-səna və təşəkkürümüz də "şükür"dür.

Hər iki söz də məna etibarilə bir-birinə çox yaxındır. Hər cür təzim Allaha məxsusdur və həmd də yalnız Onun haqqıdır. Allah-Təalanın bütün nemətlərinə həmd etmək müsəlmanın qulluq vəzifələrindən biridir. Həmd etmək qulluq borcu olduğu halda, Allah-Təalanın həmd edən quldan razı olduğunu bildirməsi böyük bir lütf və ehsandır; Onun sonsuz rəhmətinin bir təcəllisidir. Həmdə layiq yeganə varlıq Allah-Təaladır. Ayəyi-kərimədə buyurulduğu kimi:

"Göyləri və yeri (yoxdan) xəlq edən, zülmətləri və nuru yaradan Allaha həmd (şükür və tərif) olsun!..." (əl-Ənam, 1)

Cənabı-Haqq qullarının hər fürsətdə Ona həmd etmələrini istəyir. Ayəyi-kərimələrdə belə buyurulur:

"...De: Allaha həmd olsun!.." (əl-İsra, 111)

"Onların oradakı (möminlərin Cənnətdəki) duası: "Pərvərdigara! Sən paksan, müqəddəssən!", orada salamlaşması: "Salam!" duası: "Həmd olsun aləmlərin Rəbbi Allaha!" sözləridir.." (Yunus, 10)

Namazın hər rükətində oxuduğumuz Fatihə surəsinin ilk ayəsi, bizə "həmd"i təlqin edir:

"Həmd, Aləmlərin Rəbbi Allaha məxsusdur".

Onsuz da Allah-Təalaya həmd edilmədən başlanan bir iş və davranışdan xeyir ümid etmək mümkün deyil. Rəsulullah -səllallahu əleyhi və səlləm-:

"Allaha həmd edərək başlanmayan hər mühüm iş bərəkətsiz olar" (Əbu Davud, Ədəb, 18/4840) - buyuraraq biz ümmətinə bu barədə xəbərdarlıq etmişdir.

Həmd, eyni zamanda mühüm bir zikrdir. Peyğəmbərimiz həmdin fəzilətini belə bəyan edir:

"Təmizlik imanın yarısıdır. "Əlhamdulillah" duası mizanı, "Sübhanallahi vəl-həmdulillah" sözləri isə yer ilə göy arasını savab ilə doldurur. Namaz nurdur, sədəqə bürhandır, səbir ziyadır. Quran sənin ya lehinə ya da əleyhinə dəlildir. Hər kəs səhərdən (bazara çıxar) nəfsini satar, kimi onu azad, kimi də həlak edər" (Müslim, Təharət 1; Tirmizi, Dəavat 85/3517).

Həmd kimi mühüm qulluq vəzifələrindən biri də şükürdür. Şükür qulun ona lütf edilən nemətlərə və yaxşılıqlara sevinərək, onları lütf edən Rəbbinə müxtəlif söz və davranışlarla xalisanə bir qulluqda olmasıdır. Bu da göstərir ki, şükür nemətin həqiqi sahibini bilməkdir.

Hz.İmam Qəzali belə buyurur:

"Allahın verdiyi nemətləri, Onun yolunda xərcləmək şükür, sevmədiyi yerdə xərcləmək küfrani - nemətdir (nankorluq)".

Məhəmməd Əsəd Ərbil də (r.a.) şükrün həqiqi mənası haqqında belə buyurur:

"Şükür yalnız "Ya Rəbbi Sənə şükürlər olsun!" - demək deyil. Əksinə Allahın ona lütf etdiyi nemətlərin hamısını yaradılış məqsədinə uyğun

olaraq istifadə etməkdir. Şükrün ən məqbulu isə yayğın olan, yəni din qardaşlarına fayda verən (ictimai) ibadətlərdən (xidmətlərdən) ibarətdir".

***

Peyğəmbərimiz - səllallahu əleyhi və səlləm - süfrədə yeməyi bitirdiyi zaman belə deyərdi:

"Ey Rəbbimiz! Sənə tərtəmiz duyğularla, əskilməyib artan, hüzurundan rədd edilməyib qəbul edilən saysız həmd ilə həmd edirik" (Buxari, Ətimə, 54).

***

Rəsulullah -səllallahu əleyhi və səlləm- belə buyurmuşdur:

"Allah-Təala yemək yedikdən və ya bir şey içdikdən sonra Ona həmd edən qulundan razı olar" (Müslim, Zikr, 89).

***

Nəbi -səllallahu əleyhi və səlləm-in yanında iki adam asqırmışdı. Peyğəmbərimiz onlardan birinə *"yərhamukəllah"* dedi, digərinə isə söyləməd*i. "Yərhamukəllah"* demədiyi adam:

"- Filan adam asqırdı, ona "yərhamukəllah" dediniz, mən asqırdım, mənə niyə demədiniz ?!" - deyə soruşduqda Peyğəmbərimiz:

"- O adam "əlhəmdulillah" dedi, sən isə demədin" - buyurdu (Buxari, Ədəb, 127; Müslim, Zühd, 53).

***

Aişə (r.anhə) belə buyurur:

"Bir gecə Rəsulullah -səllallahu əleyhi və səlləm- mənə:

"- Ey Aişə! İcazə versən, gecəni Rəbbimə ibadət edərək keçirmək istəyirəm" - dedi. Mən də:

*"Vallah Sənin*lə *birlikdə olmağı çox sevirəm, ancaq Səni sevindirən şeyi daha çox sevirəm"* - dedim.

Sonra qalxdı, gözəlcə dəstəmaz aldı və namaza durdu. Ağlayırdı ... O qədər ağladı ki, paltarı, mübarək saqqalı, hətta səcdə etdiyi yer islandı. O, bu halda ikən Həzrəti Bilal namaza çağırmaq üçün gəldi. Ağladığını görüncə:

"Ya Rəsulallah! Allah-Təala Sizin keçmiş və gələcək günahlarınızı bağışladığı halda nə üçün ağlayırsınız? " - dedi.

Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm-:

"Allaha çox şükür edən bir qul olmayımmı? Vallah bu gecə mənə elə ayələr endirildi ki, onu oxuyub üzərində təfəkkür etməyənlərə təəssüflər olsun!" - qarşılığını verdi və bu ayələri oxudu:

"Həqiqətən, göylərin və yerin yaradılmasında, gecə ilə gündüzün bir-birini əvəz etməsində (bir-birinin ardınca gəlib-getməsində) ağıl sahibləri üçün (Allahın varlığını, qüdrətini, kamalını və əzəmətini sübut edən açıq) dəlillər vardır. O kəslər ki, ayaq üstə olanda da, otıranda da, uzananda da Allahı xatırlar, göylərin və yerin yaradılması haqqında düşünər (və deyərlər): "Ey Rəbbimiz! Sən bunları boş yerə yaratmamısan! Sən pak və müqəddəssən! Bizi cəhənnəm odunun əzabından (Özün) qoru!" (Ali İmran, 190-191)

***

Həzrəti Ömər (r.a.) bir möminə rast gəlmişdi. O davamlı *"Allahım, məni azlardan et!"* - deyə dua edirdi. Ömər (r.a.) o şəxsin bu dua ilə nəyi nəzərdə tutduğunu anlaya bilmir.

"- Nə üçün belə dua edirsən?" - deyə soruşdu. O mömin bu cavabı verdi:

"Allah-Təala, "...Bəndələrimdən (nemətlərimə) şükür edəni azdır!" (Səba, 13) buyurur. Mən də o bəxtiyar azlıqdan olmağı arzu edirəm" - dedi.

Bu gözəl düşüncə qarşısında heyran qalan Ömər -radiyallahu anh-:

"-Təəssüf olsun mənə, hər kəs Ömərdən daha ağıllı və savadlıdır!" - deyə təəssüfünü bildirdi (İbn-i Əbi Şeybə, Musannəf, VII, 81).

***

Cüneyd Bağdadi yeddi yaşında ikən dayısı Səriyyi-Saqati onu həccə aparır. Hərəm içində reallaşan irfan söhbətlərindən birində şükürdən danışılır. Oradakı ariflərin hər biri öz şərhlərini dedikdən sonra, Səriyyi-Saqati Cüneydə tərəf çevrilərək onun da danışmasını istəyir. Cüneyd bir müddət düşündükdən sonra bu möhtəşəm cavabı verir:

"-Şükür, Allah-Təalanın lütf etdiyi nemətlə Ona üsyankar olmayıb, o neməti günaha sərmayə etməməkdir" (Fəriduddin Attar, Təzkirətul-Övliya, s. 318).

Həmd kimi mühüm qulluq vəzifələrindən biri də şükürdür. Şükür qulun ona lütf edilən nemətlərə və yaxşılıqlara sevinərək, onları lütf edən Rəbbinə müxtəlif söz və davranışlarla xalisanə bir qulluqda olmasıdır. Bu da göstərir ki, şükür nemətin həqiqi sahibini bilməkdir.

Nəslihan GÜNƏŞ
gunesneslihan@gmail.com

Qənaət Təhsili

Müsəlman daxili dünyasında hüzurlu, Rəbbinə qarşı vəzifələrindən məmnun, yaşadığı insanlarla xoşbəxt və cəmiyyətə xeyir verən işlər görməyə həvəsli biridir.

Ona verilən nemətlərə qarşı şükür edib əlində olmayanlara görə də üsyan etməməyi biləndir. Bu, həyatın yükünü yüngülləşdirir, çətinlikləri asanlaşdırır, insanı sükunət əhlindən edir.

Qənaət təhsilini yaxşıca mənimsəmiş insan hər mövzuda fərqli düşünür, fərqli davranır. O, hərəkətləri ilə başda ailə fərdləri olmaqla, çoxlarına gözəl nümunə olur. Bu xüsusiyyətini nəzarət altında saxlayan, inkişaf etdirən şəxsin ən əsas xüsusiyyətlərdən birinə sahib olduğu deyilə bilər.

Yaxşı, bəs qənaət nədir? Hansı mövzularda olmalıdır?

İnsanın sahib olmadıqlarına çatmaq istəyərkən, əlində olan hər şeyin nemət olduğunu dərk edərək, qədrini bilməsidir. Maddi-mənəvi nəyimiz varsa, onun haqqını verməyə çalışmaqdır.

Yer üzünə xəlifə olaraq göndərilən və əşrəfi-məxluqat olaraq yaradılan insana Rəbbi tərəfindən fərqli-fərqli həyatlar verilmişdir. Kimisi kişi, kimisi qadın olaraq yaradılmış, kimisi Afrikada, kimisi Asiyada dünyaya gəlmiş, kimisi kasıb, kimisi zəngindir, hər kəsə bir həyat verilmiş və bu həyatı ən gözəl şəkildə yaşaması istənilmişdir. Bəzən bəzi şeylər istədiyimiz formada olmaya bilər. İnsan belə hallara özünü hazırlamalıdır.

Tamahkar, həmişə çatışmayanları görən, var olanı görə bilməyib olması lazım olana ürəyini bağlayan birisi həm Rəbbinə qarşı vəzifəsini icra etməmiş olur, həm də daxili dünyasında bədbəxt olur. Ürəyi qarmaqarışıq, qane olmağı bilməyən insanın da nə ailəsinə, nə də cəmiyyətə xeyri tam mənada dəyə bilməz. Nəticədə övlad ana-atasından, ana-ata övladdan, ər arvaddan, arvad ərdən, müəllim tələbədən, tələbə müəllimdən, xəstə həkimdən, həkim xəstədən, qonşu qonşudan, müdir işçidən, işçi müdirdən - bir sözlə hamı şikayətçi olar.

Qənaət təhsili ilə əvvəl nəfsimizi, sonra uşaqlarımızı yetişdirmək bizim vəzifəmizdir. Hər şeyin təməli ailədə atıldığı kimi bunun təhsili də öncə evdə başlayır. Hər xırda şeyə əsəbləşən, məmnun olmayan, yeməyi bəyənməyən, evdə uşaqların ən kiçik səhvinə qışqırıb-bağıran bir ata və ya həmişə olmayan şeylərdən danışan, həyat yoldaşından, ailəsindən, evindən narazı bir ana uşaqlara da bunu öyrədir.

Diqqət etsək görərik ki, valideynlər yeni nəslin daha tamahkar və bədbəxt olduğundan şikayətçidir. Bunun səbəbi bizik. Uşaqlara yaxşı model ola bilməmək birinci səbəbdir. Digər bir faktor isə onlara daim rahatlıq verərək nemətləri xatırlatmamaqdır. Ailə fərdləri birlikdə olarkən tez-tez nemətlərə şükür edərək uşaqlarına bunu göstərməlidir.

"Əlhəmdülillah sağ-salamat evə qayıt-



dınız"; "Əlhəmdülillah evdəkilər yaxşıdır"; "Əlhəmdülillah evimiz var"; "Evimiz istidir, geyimimiz var, sağlamlığımız yerindədir, süfrəmizdə yeməklərimiz var, atan nə yaxşı atadır, anan fədakar bir anadır"- kimi cümlələrlə daim bunu xatırlamalı və xatırlatmalıyıq.

Valideynlər olaraq uşaqlara həmişə hər şeyin gözəlini, daha yaxşısını verməyə çalışarkən onları nemətlərin fərqində olmayan birinə çevirə bilərik. Bu valideynlərin uşağa yaxşılığı deyil, əksinə ən böyük ziyanıdır. Gözəl evdə yaşayan, hər şeyin yaxşısını geyinən və yeyən, hər yerə xüsusi aparılan bir uşaq öz haqqının bu olduğunu düşünür və doymaq bilməyən bir şəxs olur. Əlbəttə, övladlar üçün ən gözəli edilməlidir, lakin sərhədləri qorumağı da bilməliyik. Bəzi şeylərin yox ola biləcəyini də hiss etdirilməli və tarazlıq qorunmalıdır. Mənim oğlum bunu yemir, mənim qızım bunu içmir, mənim uşağım istəmir kimi yanaşmalar təhlükəlidir. Bəzən süfrəmizə olduğundan az yemək qoyaq, bir az köhnə paltarlarını geydirək, bəzən soyuqda gəzdirək, hətta əlinə daşıması üçün çanta verək. Bəzən nemətləri göstərmək yaşına görə belə olur.

Bunları xatırlatmaq qədər vacib başqa bir mövzu da həmin nemətlərin olmamasından xəbərdar olmaqdır. Bunun üçün xəstə və uşaq evlərini ziyarət, ehtiyacı olan insanları görmək həm bizə, həm də uşaqlarımıza bu vəziyyəti xatırladacaqdır.



Biz gündə ən az qırx dəfə Fatihə surəsini oxuyuruq. Dəfələrlə eyni sözü təkrarlayırıq. Qurani-Kərimdə *"Bismillah"dan sonra keçən ilk söz "Həmd"*dir. Belə bir başlanğıc və təkrarın müsəlmanın gündəlik həyatında müəyyən bir şəkildə qarşılığını tapmalıdır.

"Həmd", lüğətdə yaxşılıq, gözəllik, üstünlük və tərifləmə mənasında izah edilir. Termin olaraq bütün mədh ifadələrini özündə birləşdirib sevgi və təzimlə Allaha yönələn tərif və şükrü ifadə edir. "Həmd", Allaha qarşı qulların məmnuniyyət və sevinclərini, Ona şükürlərini bildirmələri deməkdir.

Bunlara daha diqqətli əməl edə bilmək üçün:

• Əldə olunan nemətin Allahdan gəldiyini bilmək,

• Sünnədə olan yeməkdən sonra, oyandıqda, ayaq yolundan çıxarkən, asqırdıqda "həmd" etməklə əlaqədar olan hədisi-şərifləre diqqət etmək və vərdiş halına gətirmək.

• Onun verdiyinə razı olmaq. Bu mövzuda bir-birimizə haqqı tövsiyə etmək.

(Ey camaatım!) Yadınızı salın ki, o zaman Rəbbiniz bunu bildirmişdi: "Əgər (Mənə) şükür etsəniz, sizə (olan nemətimi) artıracağam. Yox, əgər nankorluq etsəniz, (unutmayın ki) Mənim əzabım, həqiqətən şiddətlidir!" (İbrahim surəsi, 7)

Biz də uca Allahın ***"Əl-hamdulillah deyin"*** *(İsra surəsi, 11; Ənkəbut surəsi, 63)* əmrinə tabe ola bilsək, inşaAllah ***"Onların oradakı (möminlərin Cənnətdəki) duası: "Pərvərdigara! Sən paksan, müqəddəssən!", orada salamlaşması: "Salam!" duası: "Həmd olsun aləmlərin Rəbbi Allaha!" sözləridir"*** (Yunus, 10) - müjdəsinə nail olarıq.

Rəbbim bizə sahib olduqlarımızı dərk etməyi, əlimizdən çıxıb getmədən öncə layiqincə qiymətini bilməyimizi, şükür və həmd edən qullardan olmağımızı nəsib etsin.



Könül iqlimindən incilər

Osman Nuri Topbaş

Haqq qatında bağışlanmayan qüsurlardan biri şirk, digəri də qul haqqıdır. Cənabı-Haqq qulunun dağlar qədər günahını bağışlarkən, qul haqqı olduğu təqdirdə zülmə uğrayan qulunun istəyini əsas götürür. Bu səbəbdən hər hansı bir qul haqqı səbəbiylə tövbə edən insanın, əvvəla haqqını yediyi kimsədən halallıq alması şərtdir. Canını Allah yolunda qurban edən şəhid haqqında belə:

"Şəhidin qul haqqından başqa bütün günahlarını Allah -Təala bağışlayar" (Müslim, İmarə, 119) buyurulur. Belə olduğu halda digər insanların tapdaladıqları qul haqlarını halallaşmadan əfv etdirmələrinin mümkün olmayacağı aşkardır.

Qul haqqı çox əhəmiyyətli olsa da, təəssüf ki, hazırda çox riayət edilməyən bir xüsus halına gəlmişdir. Halbuki həyatı boyunca bütün məxluqatın haqqına müstəsna bir həssaslıqla etina göstərmiş olan Allah Rəsulu (s.ə.s.) axirətə hicrət anında belə qul haqqını düşünərək bizə nümunə olmuşdur:

"Səhabələrim, kimin kürəyinə vurdumsa, budur kürəyim, gəlsin vursun! Kimin malını aldımsa, budur malım, gəlsin alsın!" (Əhməd, III, 400) buyurması, bütün insanlığa çox mənalı bir mesajdır.

Ənəs (r.a.) da, vəfatı əsnasında Peyğəmbərimizin yanında olduğunu, Peyğəmbərimizin üç dəfə *"Namaz barəsində Allahdan qorxun!"* - sözləri ilə fərdi məsuliyyətimizə diqqət çəkdikdən sonra, bu ifadələri ilə də ictimai məsuliyyətimizi xatırlatdığını nəql edir:

"-Əmriniz altındakı insanlar və iki zəif haqqında Allahdan qorxun: dul qadın və yetim uşaq" (Beyhəqi, Şuab, VII, 477).

Bu nəbəvi əxlaq ilə əxlaqlanan əshabın böyüklərindən Həzrəti Osmanın (r.a.) yaşadığı bu hadisə nə qədər ibrətlidir:

Həzrəti Osman (r.a.) bir xidmətçisinin səhvən qulağını çəkir. Səhvini anladığında isə dərhal onun yanına gedir və:

"-Sən də mənim qulağımı çək!" - deyir. Xidmətçisi onun qulağını ədəblə yüngül çəkir. Həzrəti Osman (r.a.):

"-Mən daha sərt çəkmişdim. Bir az daha sərt çək, məni axirət cəzasından qurtar!" - deyir. O könlü ayıq xidmətçi də:

"-Ey Xəlifə! Daha çox çəksəm bu səfər də mən sizə borclu qalaram!" - cavabını ve-rir və halallaşırlar.

Mövlana həzrətləri belə deyir:

"Allahın qul üzərindəki haqlarından sonra ana haqqı gəlir. Çünki kərəm sahibi Allah, ananın bətnində sənə şəkil vermişdir. Səni bətnində daşıması üçün ona sevgi və şəfqət bağışlamış, ona şirin bir məhəbbət və sonsuz bir mərhəmət göstərərək onu sənin-lə sevindirmişdir".

Digər tərəfdən insanın bu fani həyata gözlərini bağladıqdan sonra onu yuyub cənazə namazını qılan və qəbrə dəfn edən kəslərə qarşı da bir haqq mümkündür. Xülasə, insan üçün həyat, ana bətnində başlayıb məzara girənə qədər davam edən bir hüquqlar məcmuəsidir.

Allah Rəsulu (s.ə.s.) cənazə namazı qıldıracağı zaman meyidin üzərində qul haqqı olub-olmadığını soruşur, ödənənə qədər cənazə namazını qıldırmazdı (Buxari, Fəraiz, 4, 15, 25; Müslim, Fəraiz, 14; Tirmizi, Cənaiz, 69/1069; Nəsai, Cənaiz, 67)

Belə ki, Əbu Qatadə (r.a.) belə nəql edir:

"Rəsulullahın (s.ə.s.) yanına namazını qıldırması üçün bir adamın cənazəsi gətirildi. Peyğəmbərimiz:

"-Onun üzərində borc var, yoldaşınızın namazını siz qılın!" - buyurdu. Mən:

"- Borc mənim üzərimə olsun, ey Allahın Rəsulu", - dedim.

"-Tamamiləmi?" - buyurdu.

"Bəli, tamamilə ödəyəcəyəm!" - dedim. Bundan sonra cənazənin namazını qıldı" (Tirmizi, Cənaiz, 69/1069; Nəsai, Cənaiz, 67).

Atanın, ananın və uşaqların bir-birləri üzərində hüquqları vardır.

Ata, xanımının və uşaqlarının ehtiyaclarını halalından təmin edərək onları ən gözəl bir tərbiyə ilə axirət yurduna hazırlamalı, onları zamanın şər yağmurlarından bir çətir kimi qorumalıdır.

Ana yoldaşına qarşı vəzifələrində həssas davranmalı, balalarının könül dünyasını mərhəmətlə inşa etməlidir. Çünki ana bir məktəbdir.

Həmçinin ana-ata, uşaqlarına qarşı ədalətli davranmalı, ayrı-seçkilik etməməlidir. Uşaqlar da ana-atalarına hörmət və məhəbbətlə davranmalı, onlara itaət edərək xidmətlərində durmalıdırlar.

Necə ki, bir şəxs, Rəsulullahın (s.ə.s.) yanına gələrək:

"Ey Allahın Rəsulu! Ən yaxşı davranılması lazım olan şəxs kimdir?" - deyə soruş-duğunda Rəsuli-Əkrəm (s.ə.s.) bu cavabı verir:

"-Anan, sonra anan, daha sonra yenə anan, sonra atan, sonra da sənə ən yaxın olan qohumun" (Müslim, Birr, 2).

Gündəlik həyatımızda bir çox insana normal gələn o qədər hadisə vardır ki, əslində hamısı bir qul haqqı çərçivəsində qiymətləndirilməlidir. Məsələn, sıx yol axışının olduğu yerlərdə guya gözüaçıqlıq edərək bir çox sürücünü çətin vəziyyətə salmaq və bəzi hallarda sırf özünü düşünmək, hesabı asan verilməyəcək olan qul haqlarındandır.

Həmçinin yemək qoxusu ilə qonşuya əziyyət etmək, balkon və ya pəncərələrdən palpaltar silkələyərək onlara narahatlıq vermək də belədir.

Müasir zamanda miras bölgüsü məsələsində tərəflərin dini qanunlara riayət etməməsi də qul haqqına misaldır və edilən haqsızlığa görə halal mala haram qarışdırılır.

Həmçinin qul haqqı konkret bir şəkildə bir başqasının malını oğurlamaq və ya qəsb etmək olaraq başa düşülməməlidir. Bütün hal və davranışlarda eqoistlik edərək başqalarının hər cür haqqını çeynəmənin də qul haqqına girdiyi bilinməlidir. Yəni maddi olaraq qul haqqına girməklə, mənəvi olaraq qul haqqına girmək arasında bir fərq yoxdur. Əksinə mənəvi qul haqlarının hesabı daha ağırdır. Məsələn, tələbəsini yetişdirmək xüsusunda səhlənkar davranan bir müəllim, tələbəsinin vaxtını və enerjisini hədər edib bir "insan israfı"na səbəb olduğu üçün üzərinə ağır bir qul haqqı almış deməkdir. Yenə bir məscid imamı, camaatına qarşı etinasızlıq edib onları irşad etməkdə zəiflik göstərirsə, qul haqqına girmiş olur.

Həssas bir şəkildə düşünülsə, qul haqqının əhatə dairəsi o dərəcədə genişdir ki, bir müsəlmanın üzünə haqsız yerə sərt baxmaq belə bir qul haqqıdır. Bununla yanaşı, bir din



qardaşının səhvlərini qiyabi söylə-yərək onu alçaldan qeybət də bir qul haqqıdır və böyük günahlardandır. Necə ki, ayəyi-kərimədə belə buyurulmuşdur:

"(Dalda) qeybət edib (üzdə) tənə vuran hər kəsin vay halına!" (Əl-Huməzə, 1)

Bu səbəbdən bir sözü söyləyərkən də onun ürəyə batan bir tikan olmamasına diqqət edilməlidir. Necə ki, Aişə validəmiz bir dəfə qəflətən Safiyyə anamız haqqında:

"Ey Allahın Rəsulu! Safiyyənin qısa boylu olması sənə yetər", - deyərək onu kiçik gördüyündə Peyğəmbərimiz ona bu cavabı verir:

"-Ey Aişə! Elə bir söz söylədin ki, əgər o söz dənizə qarışsa idi, onun suyunu məhv edərdi" (Əbu Davud, Ədəb, 35/4875; Tirmizi, Qiyamət, 51).

Əcdadımız dükanların vitrininə qoyulan malları, *"Kim bilir neçə yetim, kimsəsiz və yoxsulun hüznlü nəzərləri ilişib qalmışdır!"* - deyə düşünərək almaqdan və satmaqdan imtina etmişlər. Bu həssaslıq səbəbi ilə vitrinlərə, küçədən gələcək baxışları önləmək üçün bir pərdə asmışlar. Halbuki indiki zamanda kasıb-füqəranın qəmli baxışlarına önəm vermədən ən ləziz qidalar restoran vitrinlərində tərəddüd edilmədən nümayiş edilir, kabablardan çıxan qoxularla qarnı ac olduğu halda imkansızlıq səbəbindən ala bilməyən insanlara əziyyət edilir. Lakin bu bilinməlidir ki, satan halalından satır, alan halal pulu ilə alsa da, yetim baxışlarının və nəzərlərinin nüfuz etdiyi bu qidalar mənən yaralıdır, yaralayıcıdır. Göz haqqını bir qul haqqı görən müstəsna mədəniyyətimizdən bu gün geriyə nə qalıb?!

Qul haqqı yeməyin daha təhlükəli bir növü də, cəmiyyətin ortaq haqqı olan dövlət və xeyriyyə mallarını haqsız yerə qəsb etmək və ya uyğunsuz şəkildə istifadə etməkdir. Bu haqsızlıq daha təhlükəlidir. Çünki sonunda peşman olsa belə halallaşacaq birini tapmaq mümkün deyil. Çünki o mallarda hər kəsin haqqı var.

Hədisi-şərifdə belə buyurulmuşdur:

"Şübhəsiz ki, haqsız olaraq Allahın malını istifadə edən kəslər, qiyamət günündə cəhənnəmə layiq olarlar" (Buxari, Hums, 7).

İnsanların səmimi və saleh əməllər işləməyə müvəffəq olmamalarının başlıca səbəbi harama, şübhəli şeylərə və qul haqqına kifayət qədər diqqət etməmələridir. İbadətlərdə dinclik və huşu halında ola bilmək, zövqlə və gözyaşı tökərək Allahın əmrlərini ifa edə bilmək ancaq qul haqqından çəkinərək həssas bir təqva həyatı yaşamağa bağlıdır.

Heç kim başqası tərəfindən hesaba çəkilməkdən xoşlanmaz. Lakin bu bir həqiqətdir ki, qiyamət günü hər kəs hesaba çəkiləcək. Necə ki, ayəyi-kərimədə belə buyurulur:

"Sonra da həmin gün (Allahın dünyada sizə əta etdiyi) nemətlər barəsində mütləq sorğu-sual olunacaqsınız!" (Təkasur, 8)

"Kim (dünyada) zərrə qədər yaxşı iş görmüşdürsə, onu (onun xeyrini) görəcəkdir (mükafatını alacaqdır). Kim də zərrə qədər pis iş görmüşdürsə, onu (onun zərərini) görəcəkdir (cəzasını çəkəcəkdir)" (Zəlzələ, 7-8).

Bu səbəbdən fani həvəslər uğruna ilahi hüdudları tapdalamaq və ilahi əfvin xaricində buraxılan qul haqqı ilə Allahın hüzuruna çıxmaq nə dəhşətli bir aldanışdır.

Rəsulullah (s.ə.s.) belə buyurmuşdur:

"Kimin üzərində din qardaşının isməti, namusu və ya malıyla əlaqədar bir zülm var-sa, qızıl və gümüşün olmayacağı qiyamət günü gəlmədən əvvəl o kimsəylə halallaşsın! Yoxsa özünün saleh əməlləri varsa, etdiyi zülm miqdarında savablarından alınır, (haqq sahibinə verilir). Əgər yaxşılıqları yoxsa, zülm qardaşının günahlarından alınaraq onun üzərinə yüklənir" (Buxari, Məzalim 10, Rikak 48).

Rəbbimiz axirətdə müflis olmaqdan cümləmizi mühafizə etsin. Bizləri hüzuruna qul haqqı ilə deyil, razı olduğu əməlisalehlərlə çıxa bilən saleh qullarından etsin. Amin!

Aygün MƏMMƏDZADƏ



Əl-Muzil

Əl-Muzil, istədiyini zəlil edən, xor görən və alçaldan deməkdir.

"(O gün) bir çox üzlər zəlil görkəm alacaq" (Ğaşiyə, 2)

"Günah qazananlara günahları qədər cəza verilər. Onları zillət basar (bürüyər). Onları Allahdan (Allahın əzabından) heç kəs qurtara bilməz. Onların üzü, sanki gecənin zülmət parçaları ilə örtülmüşdür. Onlar cəhənnəmlikdirlər, özləri də orada əbədi qalacaqlar!" (Yunus, 27)

Allah, özünü böyük göstərəni, lovğalananı sevməz. Çünki mal-mülk insanın özünün qazandığı bir şey deyil, Allahın ona lütf etdiyi nemətdir. Allahın inkarçıları sövq etdiyi *"dünya əzabı"* nın bir hissəsi də xor və həqir etmədir. Allah bir çox ayəsində axirətdə inkar edənlərə alçaldıcı bir əzabın olduğunu xəbər verir. Bu, inkarçıların dünya həyatındakı təkəbbür və lovğalanmaları qarşısında Allahın təqdir etdiyi bir cəzadır. Çünki dünya həyatında inkarçıların ən böyük hədəflərindən biri başqa insanlar tərəfindən təqdir edilmələridir. Bu səbəblə də həyatlarını Allaha həmd etməklə deyil, özlərinə tərif yığmaqla keçirirlər. Allah da bu davranışlarına cavab olaraq cəhənnəmdəki əzabı bunun üzərinə qurmuşdur. Cəhənnəmdə ən böyük həlakı isə insanların qarşısında alçaldıqları zaman yaşayacaqlar.

Müzil inkar edənləri dünyada köləliklə, alçaltmaqla zəlil edən, axirətdə də onları cəzalandırmaqla və əbədi olaraq cəhənnəmdə qalmaqla zəlil edəndir. Allah üsyankarlara dəstək verməyərək onları zəlil etmişdir. Buna görə üsyankarlar günah bataqlığına qərq olmuşdur. Allah bir qulunu zəlil etmək istədiyi zaman onu arzu və istəklərinə düşkün edər, özü ilə onun arasına bir pərdə çəkər və onu özünə dua etməkdən uzaqlaşdırar. Allah-Təala sevdiklərini əməllərində səmimi və ixlaslı olmaları ilə əziz edib, digərlərini isə riya və göstərişlə zəlil edəndir. Allah seçilmiş qullarını, nəfslərinin istək və arzularını tərk etməklə əziz edib, digərlərini isə istək və arzularına tabe olmaqla zəlil etmişdir.

"(Allah) onları, onlar da (Allahı) sevərlər" (Maidə, 54) ayəsində olduğu kimi dostlarını tərifləyərək onları əziz etmiş, düşmənlərini də: ***"Əbu Ləhəbin əlləri qurusun, qurudu da!"*** (Məsəd, 1) ayəsində göründüyü kimi onları tənqid edərək zəlil etmiş və alçaltmışdır.

Ya Muzil! Sənə boyun əyməyimiz ən böyük sevincimizdir! Sənin qapına gəlməyən sonsuz çarəsizliklər içindədir. Sənə möhtac olmağımız ən böyük şərəfimizdir, bizi cavabsız qoyma! Amin!..



“...Ey Rəbbim! Məni tək (kimsəsiz, varissiz) buraxma. Sən varislərin ən yaxşısısan! (Bütün məxluqat yox olar, ancaq Sən qalarsan!)…” (Ənbiya, 21/89)

Gözlərimi ağrı içində reanimasiyada açdıqda həyatda qaldığım üçün Allaha neçə təşəkkür edəcəyimi bilmirdim. Çünki o qəzadan sağ çıxmaq imkansız idi. Qəza zamanı ilk yardımı tibb işçiləri etmişdi. Dediklərinə görə məni aqoniya vəziyyətində reanimasiyaya yerləşdiriblər. Sonradan öyrəndim ki, aqoniya xəstənin son dərəcə ağır vəziyyətdə olması, tənəffüsün, qan dövranının və orqanizmin həyat üçün əhəmiyyətli digər funksiyalarının kobud surətdə pozulması imiş...

İki gün reanimasiyada həyati təhlükə sovuşduqdan sonra palataya köçürülmüşdüm. O gün səhər tezdən həkimi səbirsizliklə gözləyirdik.

“Çox şükür axır ki, gəlib çıxdınız”- deyib gərgin baxışlarımı palata həkiminə zillədim.

“Sabahınız xeyir. Bu gün özünüzü necə hiss edirsiniz?”- təmkinini pozmadan həkim əlindəki analizlərin nəticələrinə baxmağa başladı.

“Pis. Çox pis hiss edirəm”.

Üzərimdəki gərginlik və həyəcan davam edirdi. Açığı bu gərginliyimdə anamın üzündəki istirabın da payı vardı. Yazıq anam günlərdi başımın üstündə gecə-gündüz keşiyimi çəkirdi. Yorğunluqdan palatanın qapısına söykənib, nəvaziş dolu gözləri ilə mənə baxırdı. Həkim yenə soyuqqanlıqla davam etdi:

“Necə deyərlər, ananız namaz üstə olub. Şükür”.

Anam doluxsunmuş halda:

“Allah qoruyub balamı...” –qəhərdən davam edə bilmədi cümləsinə.

Bilmirəm bunu necə deyim - deyib danışmaqda çətinlik çəkirdi həkim. Gah əlindəki vərəqləri bir – birinin üstünə qoyur, gah da gözucu mənə baxırdı.

“Həkim siz öhdənizə düşəni etdiniz”- deyib həyəcanla gözləyirdim.

“İflic...”- deyib gözlərini pəncərəyə çevirdi.

Həkimin təmkinli baxışlarının arxasında küncə sıxılmış, balaca uşaq kimi dizlərini qucaqlayıb xısın-xısın ağlayan insanı gördüm. Anam isə bayaqdan bəri söykəndiyi qapıdan üzü aşağı sürüşərək yerə oturdu. Yox, yerə çırpıldı sanki. Açığı işin nə yerdə olduğu gün kimi aydın idi. Güclə özümü toplayıb onun davam etməsini başımla işarə etdim.

“İflicin bir neçə növü var”. –dedi. Sanki danışmaq üçün mənim təsdiqimi gözləyirdi.

Bəli.

“Paraplegiya... Sizdə yuxarı ətrafların hərəkəti müşahidə olundu. Ancaq ayaqlarınız bir müddət hərəkətsiz qalacaq”. Çünki...

Taqətsiz halda həkimə əlimlə *“Bəsdir!”* işa-

rə etdim. Qəhər boğazımda elə düyünləndi ki, udquna bilmədim.

"Ətrafların funksiyasının bərpası üçün xüsusi müalicə üsullarından massaj, bədən tərbiyəsi və s. istifadə etmək lazımdır" - dedi.

Qulaqlarımdan od çıxırdı. Sərxoş sürücünün qurbanı olmuşdum. Gücüm çatdığı qədər bağırmaq istəyirdim. Amma taqətsizliyimdən huşumu itirdiyimi xatırlayıram.

O gündən sonra xəstəxanadan və müalicələrdən yorulmuşdum. Axı kim deyə bilərdi ki, gəzməyin, qaçmağın nə olduğunu bilən biri əlil olacaq. Çox darıxmışdım o günlərim üçün çox...

Təngə gəlmişdim yaxınlarımın məni ziyarət edib hər dəfəsində də *"Kədərlənmə. Demək ki, xeyirlisi bu imiş"* ifadəsindən. Hələ statistikadan misallar gətirən veteran qonşumdan demirəm. Hər məni görməyə gələndə ilk cümləsi belə olurdu: *"Bu gün Azərbaycandakı 420 min əlilin 59 mini uşaqlıqdan əlillərdir. Bunu bilirdinmi?"* Bezmişdim bu kişinin uzun-uzadı nöqtəsiz-vergülsüz moizələrindən.

Zaman keçdikcə susqun, gülməyi belə unudan və zəif birinə çevrilirdim. Daha gücüm qalmamışdı. Ətrafımdakı insanların mənimlə münasibətlərində özümü daha da cılız görürdüm. Anamın cəhdlərinə də baxmayaraq otağımdan belə çıxmaq istəmirdim. Mənə görə bu, aciz görünməkdən, yerli-yersiz ürəkdirəkdən daha yaxşı idi.

Bütün bu acılar içində qovrularkən, yanımda tək anam vardı. Məni sözsüz - sualsız həmişəki kimi yenə o başa düşürdü. Mənəvi əzabla yanaşı, hələ maddi yüküm də çiyinlərində idi. Bilirdim ürəyi qan ağlayır, amma bunu mənə hiss etdirmirdi. Bu yeni həyata alışmaqdan başqa çarəm də yox idi. Bir tərəfdən də bu həyatla barışmırdım. Hər gecə anam məni körpə uşaq kimi qucağına alıb yatağa uzatdıqdan sonra göz yaşı dolu kabuslarım başlayırdı. Az qala intihara kimi davam edirdi bu üsyanlar. Vaxtın hardan gəlib keçdiyini unutmaq üçün oxuduğum kitabın səhifəsini çevirəndə bir qeyd gördüm. Balaca sarı kağız idi. Əvvəl əhəmiyyət vermədim. Amma anamın xətti diqqətimi cəlb etdi:


"...Bəzən xoşlamadığınız bir şey sizin üçün xeyirli, bəzən də xoşladığınız bir şey sizin üçün zərərli ola bilər. (Onu) Allah bilir, siz bilməzsiniz!" (Bəqərə, 2/216).

Təkrar-təkrar ayəni oxudum. *"Allah bilir, siz bilməzsiniz!"* cümləsi məni düşüncələrimdən çox uzaqlara apardı. Üç gün özümə qapandım. Bu müddət ərzində ayənin hər kəlməsini öz-özlüyümdə təfəkkür etdim. Anladım ki, Allah qarşısında acizəm. Sanki məni qəflətdən oyatdı bu sözlər. İnsanı insan edən ən böyük dəyərlərdən biri Allahın verdiyi həyata hörmətdir. *"Hər şeyə rəğmən həyat davam edirsə, yaşayacaqsan"*- dedim. Həyat yalnız onu yaşamağı bilən cəsur insanlarındır. Başa düşdüm ki, əlillik öz iradəsindən, yaşamaq üçün hər cür cəhddən imtina etməkdir, başqasına yük olmaqdır. Əgər ruhum sağlamdırsa, fiziki qüsur qazansam belə, əsas odur ki, həyat eşqim itməyib.

Mənim üçün yeni həyat səhifəsi açıldı. Həyata, təbiətə və insana olan sevgimlə həyatımı yenidən qururdum. O həyat ki, zövq və üzüntülərin yaşandığı bir məkandır. Yaxşı günlərimdə sevinir, həyata daha çox bağlanır, gələcəyə belə ümidlə baxırdım. Bəzən də ağlıma gətirmədiyim hadisələrin acı çəkən qəhrəmanı olub mətanətimi itirmirdim. İnsan hər zaman Allahın köməyinə möhtacdır. Ona pənah aparır, arzu istəklərini Ona bildirir. Necə ki, Anam adət etmişdi namazda ürəyində dua etməyə. ***"Rəbbinizə yalvara-yalvara, həm də gizlicə dua edin. Şübhəsiz ki, O, həddi aşanları (qışqıraraq dua edənləri) sevməz!"*** (Əraf, 7/55) ayəsini hər dua edəndə istər istəməz xatırlayırdı. Həmişə deyir: "Həyatda ola biləcəyin ən gözəl yer, kiminsə duasında olmağındır. Kimliyindən asılı olmayaraq çalış ki, duaya açılan əllərdə və dillərdə olasan". Demək Anam susqunluğunu belə ifadə etmişdi. Bu bir ana harayı idi. Məni qaranlıq dünyadan dartıb çıxaracaq əl idi.Ürəyində Allaha etdiyi gizlicə dua ilə, kağıza yazdığı ayə ilə...

"Rəbbiniz buyurdu: "Mənə dua edin, Mən də sizin dualarınızı qəbul edim! (Məni çağırın, harayınıza yetişərəm, yaxud yalnız Mənə ibadət edin, sizi mükafatlandıraram!)" (Ğafir, 40/60)

Gülbəniz MEHDİYEVA



Peyğəmbərimizə (s.ə.s.) məktub

Ya Rəsulum! Səndən yazmaq tapşırılıb bu gün mənə!

Axı nə yazım?! Necə yazım?!

Səndən yazmağa qələmimin gücü yetməz...

Kəlmələr acizdir adının qarşısında...

Bir gün Züleyxa Yusifinə məktub yazıbmış... Əvvəlinə Yusif yazır, ortasına Yusif yazır, sonu gəlir məktubunun yenə, yenə Yusif yazır. Anlamışdı Züleyxa...

Bilirdi, Züleyxanın lüğətində Yusifdən daha qiymətli söz, gözlərində Yusifdən daha dəyərli bir dağ yox idi... Bütün dünya gözlərində Yusif idi Züleyxanın...

Bu gün elə bir insanı yazmaq tapşırılıb ki mənə Züleyxanın Yusifi Onun hörmətinə gəlib dünyaya...

Aləmlərə rəhmətdi Onun gəlişi, üzünün nuru, saçlarının dəni, mübarək ayaqlarının tozu belə...

O elə bir insandır ki, əgər Rəbbim bizə Onu lüft etməsəydi yenə qızlar diri-diri dəfn edilər, ya da doğulduqları üçün günahkar damğası ilə yaşayardılar. Belə ki, bir gün Peyğəmbərin (s.ə.s.) yanına bir kişi gəlir ağlayır, ağlayır, durmadan ağlayır. Məsciddə hər kəs mat-məəttəl qalır...

Adam durmadan hönkür-hönkür ağlayır. Yaxınlaşır Peyğəmbərə (s.ə.s.), deyir: *"Ya Rəsulum! Mənim elə bir günahım var ki, günahımın cəzasından qorxuram, tir-tir əsirəm o cəzanın şiddətindən".*

Peyğəmbərimiz (s.ə.s.): *"Nədir günahın danış?!"* - deyir. Adam göz yaşları içində sözə başlayır: "Ya Rəsulum! Sən gəlmədən bu dünyada xanımların kölələrdən fərqi yox idi, onlar nə bir söz deyə bilərdilər, nə bir fikir bildirərdilər. Qızlar diri-diri dəfn edilərdi.

Və bir gün...

Bir qızım doğulmuşdu mənim... Qızımın gözəl saçları, qara iri gözləri vardı. Həmişə oynayardı mənimlə, Ya Rəsulum! Çox sevərdim mən onu çox... Amma hamı qınayırdı məni... Çünki qızımı hələ öldürməmişdim... Çünki mən sevirdim onu... Artıq dözə bilmirdim qı-

naqlara... İnsan arasına çıxa bilmirdim... Bir gün gecə qaranlıqda qızımı götürüb evimizdən çox uzağa apardım, bir daha dönə bilməyəcəyi birlikdə getdiyimiz ən sonuncu yerə... Əlimdə külüngüm var idi.

Ya Rəsulum! - deyir, ağlayır... Qızım hələ uşaq idi ey Allahın Elçisi, o bizi oynamağa gedirik sanırdı... Oynayaraq gedirdi... Mən də... Ağlayaraq... Bir təpənin yanına çatanda torpağı qazmağa başladım... Ya Muhammməd, mən qazırdım, külək torpağı qaytarırdı quyuya... Ağlayırdı təbiət, üsyan edirdi kainat, amma mən davam edirdim qazmağa...

Qızıma gəl quyuya bax, dedim... O baxanda yavaşca kürəyinə vurdum... Quyuya düşdü...

Ağlayırdı... *"Ata! Qaranlıqdı bura! Ata, qorxuram!"* deyirdi... Mən də torpaq tökürdüm qızımın üstünə, Ya Rəsulum!

Bu dəfə də torpaq göyə sovrulurdu... Amma mən davam edirdim öz körpəmi dəfn etməyə... Kar idim, Ya Muhammməd, eşitmirdim öz körpəmin yalvarışını, kor idim, Ya Mustafa, görmürdüm onun bir hədiyyə olduğunu...

Mən evə gedərkən yolda anası gəldi qabağıma saçlarını yolurdu... Gözlərindən qan gəlirdi yaş yerinə... Amma susurdu... Danışa bilməzdi axı... Onun haqqı yox idi bircə kəlmə söz deməyə... Ya Rəsulum, de, de ki, keçər bu dəhşətli günahımdan mənim Rəbbim. Peyğəmbərimiz üzünü çevirir və bircə kəlmə deyir... Bir də danış... Dəfələrlə danışır... Hamı, hər kəs göz yaşında boğulur. Rəsuli-Əkrəmin mübarək dodağından tək bir kəlmə süzülür: *"İslamdan əvvəl olan günahlar bağışlanmışdır"*.

İndi düşünün əgər gəlməsəydi, yaranmasaydı... İndi nə mən bu sözləri yazardım, nə siz oxuyardınız.

Mən varlığıma səbəb olan insana necə məktub yazım?! Nə yazım?! Nədən yazım?! Günahlarım imkan verməz ki... Utanıram layiqli bir ümmət olmadığım üçün...

Bir gün gül qoxulu, nur üzlü Peyğəmbərimiz (s.ə.s.) ağlayırmış... Dayanmadan, sakitləşmədən... Səhabələr gəlir Rəsuli-Əkrəmin bu halını görüb heç kim cəsarət etmir ki, nə baş verdiyini soruşsun. Fatimeyi-Zəhra (s.ə.) xanımı çağırırlar. Xanımlar xanımı gəlir... Soruşur o gül qoxulu Peyğəmbərdən (s.ə.s.) "Nə baş verib?" - deyə... Peyğəmbər (s.ə.s.) göz yaşları içində cavab verir: *"Mənim ümmətimin xanımları saçlarını, bədənlərini hər kəsə göstərəcək gələcəkdə"* - deyir və ağlayır... Xanımlar xanımına qoşularaq ağlayır... Hər dərdi ümmətdi, hər fikri ümmətdi onun...

Bunları eşidəndən sonra axı necə utanmayım... Saçlarımın, qollarımın açıq qaldığı hər saniyə üçün ayrı-ayrı utanıram. İlahi! Ya RƏBBİM!!! Axı mən necə səbəb olmuşam aləmlərə Rəhmət olan o insanın, yaradılışın ən üstününün mübarək göz yaşlarına...

Hələ də utancımdam ölürəm... Xəcalətimdən yerlərin ən dərin qatla-rındayam... Dəfn olunan o körpə kimi... İlahi əfv et deyib susuram... Ya əfv etsən?! Bir də onun xəcalətinə bürünüb susuram... Zəhranın atası öldüyü gün bütün qızlar yetim qaldı deyib susuram... Dəfn olunan körpənin anası kimi... Hüseynin Babası öldüyü gün damarlarda dondu qanlar deyib susuram...Ya Məhəmməd!!! Ya Mustafa!!! Rəsuli-Əkrəm deyib susuram!!! Eynən son nəfəsdə *"Ümmət (Ümmət)"* deyib susduğun kimi...

Xədicə ŞAHİN

Bardan Söhbətə



Abdullah ibni Məsud (r.a.) belə deyərdi: *"Gələcək hər ilin bir əvvəlkindən daha pis olmadığı əsla görülməmişdir. Mən bu sözümlə bu il digərindən daha yağışlı və ya bu il digər ildən daha bolluq olacağını nəzərdə tutmuram. Mən bununla xeyirli insanların və alimlərin aramızdan getmələrini nəzərdə tuturam".*

Abdullah ibni Məsudun (r.a.) sözünə baxdığımızda əvvəlki nəslin özündən sonra gələn nəsli tənqid etməsi normal görünür. Pedaqoqların fikrincə onlar da bir əvvəlki dövrün şagirdlərini çıraqla axtardıqlarını söyləyirlər. Hz. Əlinin (r.a.) gözəl bir sözü var: *"Hər insan öz zamanının uşağıdır".* Demək ki, biz də bu zamanda doğulsaydıq bu zamanın uşağı olardıq. Yəni texnologiya əsrinin uşaqları. O zaman bu çağda yaşayan uşaqları tənqid etmək yerinə, onların xeyirli nəsil ola bilməsi üçün çalışmalıyıq.

Mən də yeni nəsli tənqid edənlərdənəm. Bu tənqidlərin nəsillər arasında uçurumu daha da dərinləşdirdiyini görüb məktəbli gənc qızlarla əqaid dərslərinə başladıq. Nəfs mənfəəti sevər. Dərsdə iştirak edənlərin sayını artırmaq üçün dərsimizdə video, yemək var deyərək reklam etdik. Quran kursunun şagirdlərinin geyiminə adət edən biri üçün ilk dərsdə tələbələrin geyim-keçimlərini görüb bir az çaşdım. Hamısı medianın verdiyi imicdə, üzlərini bağlasan görünüş olaraq aralarında heç bir fərqlilik olmayan, moda səhifələrindəki manikenlər kimi geyinmişdilər. Qəlblər Allahın əlində olduğundan ilk dərsimizdə aramızda səmimi bir sevgi meydana gəlmişdi. Dərsə davamiyyətin olmasını yoxlamaq üçün *"çox məşğulsunuzsa, dərsi 15 gündə bir edə bilərik"* - dediyimdə, *"xeyr, hər həftə bu dərsi istəyirik"* - dedilər.

İkinci həftə içlərindən bir gənc qız yoldaşına dərsə gələ bilməyəcəyini, axşam bir ad günü yığıncağı üçün barda olacağını söyləmişdi. Yoldaşı dərsə gələ bilməyəcəyini mənə bildirdiyində bar sözünü eşidəndə kədərləndim. Bara getsə də dərsə gəlməsi üçün nə isə etməli idim. Barda olduğu saatlarda ona -*"Dərsdə onu görməkdən çox şad olduğumu, mənə müsbət enerji verdiyini və yolunu gözləyəcəyimi"* - yazdım. Elə də ümidli deyildim. Dərs saatı yaxınlaşdıqda qapının döyüldüyünü, ilk gələnin bara gedən gənc qız olduğunu görəndə çox sevindim. Sözümü yerə salmayıb gəldiyi üçün xüsusi təşəkkür etdim. Dərs başlamazdan əvvəl barda necə əyləndiyini yoldaşlarına danışırdı. Mən yanlarına gələndə yəqin ki, özünü bağışlatmaq üçün "barda yoldaşlarımın hamısı içki içdi, mənə çox təkid etmələrinə baxmayaraq, mən içkini dilimə belə vurmadım" -dedi. Bara getdiyini eşidəndə nə qədər kədərlənmişdimsə, içki içmədiyini eşidəndə bir o qədər sevindim. *"Nə gözəl, elə çirkin bir mühitdə yoldaşlarına "yox" deyə bilmək içindəki iman qüvvətini göstərir"* - dediyimdə gərginliyi bir az azalmışdı. Bəlkə də mənim onu danlayacağımı və ya tənqid edəcəyimi düşünmüşdü. Arxasından da *"günah edilən mühitlərdə olmaq, o günahı etməsən belə Allahın sevmədiyi bir hərəkətdir"* - dedi-

yimdə, gənc qız *"günahı etmədikdən sonra elə məkanlarda oturmağın yalnış olduğunu bilmirdim. Bundan sonra daha diqqətli olaram"* - dedi.

Bu gənc qızımız daha sonrakı həftələrdə dərslərə hər zaman gəlirdi. İrəliləyən həftələrdə beş vaxt namazını qıla bilməsə də, səhər namazlarını qılmadan evdən çıxmadığını eşitmək mənim üçün ən böyük mükafat oldu.

Əbu Dərda (r.a.) bir gün böyük bir günah işləmiş bir adamın yanına gəldi. Oradakılar həmin adamı söyüb təhqir edirdilər.

Əbu Dərda (r.a.) bu insanlardan soruşdu:

-Bu adam bir quyuya düşsəydi onu xilas etməzdinizmi? Onlar belə cavab verdi:

-Edərdik.

Əbu Dərda (r.a.) davam etdi:

-Elə isə qardaşınıza söyməyin. Sizləri onun vəziyyətinə düşməkdən qoruyan Allaha həmd edin!

Onlar Əbu Dərdadan (r.a.) soruşdular:

- Sən ona nifrət etmirsən?

- Mən ona deyil, onun etdiyi işə nifrət edirəm. O işdən əl çəkdiyində yenidən mənim qardaşımdır.

Hər insanın içinə düşdüyü bir günah çuxuru vardır. Bəzisi bu çuxurdan öz səyi ilə çıxarkən, bəzisi də onu qurtaracaq bir əl axtarar. Hər müsəlman günah çuxurunda vurnuxub duran insanı tənqid etmək yerinə qurtarıcı əl olmağa çalışmalıdır. Bəzən qurtarıcı əl olmaq yerinə günahkara lənət edərək qardaşımızı daha dərinlərə itələyə bilərik. Peyğəmbər (s.ə.s.) zamanında baş vermiş gözəl bir nümunə vardır:

Nuayman adında səhabə bir neçə dəfə içki içdiyi üçün hər dəfə Peyğəmbərin (s.ə.s.) hüzurunda cəzalandırılırdı. Bəzisi paltarıyla, bəzisi əlindəki ayaqqabı ilə ona vururdu. Səhabələrdən biri:

"Lənətə gəlmiş nə çox içir" - deyincə, Peyğəmbər (s.ə.s.):

"Qardaşın haqqında şeytana kömək etmə" - dedi. Başqa bir rəvayətə görə də:

"Belə demə! Çünki o, Allah və Rəsulunu sevir" - buyurdu.

Beləcə içki içən adama lənət oxumağı qadağan etdi. Lənət yerinə dua ilə kömək əlini uzatmalıyıq. Qırğızıstandakı Quran kursunda başladılan yaz kursuna şagird olaraq gələn qadınla etdiyimiz söhbətdə *"illərdir yoldaşıma duadan başqa edə biləcəyim bir şey qalmadı"* - dedi. Səbəbini soruşduqda, *"Yoldaşım 36 ildir namaz qılır, həccə və ümrəyə gedib, orucunu heç axsatmaz, amma şalımın (Orta Asiyada yaşı irəliləmiş bəy üçün istifadə edilən sözdür) bir qüsuru var. Namaz qıldığı, həccə, ümrəyə getdiyi halda içkini tərgidə bilmir. Bu əməli tərk etməsi üçün özü də, biz də nələr etmədik?!... Yoldaşım "bu xəstəlikdir, asılılıqdır, heç cür tərk edə bilmirəm"- deyir. "Rəbbimə yoldaşımın bu günahı tərk etməsi üçün namazlarımda gözyaşlarımla dua edirəm"*- deyirdi. Dərdinin böyüklüyünü üzündəki hüzn izah etməyə kifayət edirdi.

İçki və namaz, içki və həcc bir-birinə nə qədər zidd əməllərdir, deyilmi? Ya da bar və söhbət. Eşidəndə ilk anda *"necə ola bilir?"*- deyə fikirləşirik. Amma namazla dedi-qodunu, orucla yalanı, həclə aldatmağı rahatlıqla yan-yana gətirə bilirik. Bunlar artıq həyatımızın hər anında olduğu üçün normal qəbul etdiyimiz günahlar halına gəldi. İnsan davamlı gördüyü bir işi böyük günah olsa belə, bir müddət sonra ona reaksiya vermir. Onun üçün bu günah normal bir hadisə kimi görünür. Media əxlaqsızlıqları, günahları illərlə damla-damla cəmiyyətə yedirilərək normallaşdırılmışdır. Yalanın adına çəhrayı yalan, qeybətə kiçik dedi-qodular deyərək dinən böyük günahların kiçildilməsinə səbəb olmuşlar.

Fizikada boşluq yoxdur. Tənqid edərək özümüzdən uzaqlaşdırdığımız yeni nəsli, media hiylələrlə özünə bağlamağı çox gözəl bacarmışdır. Bitib - tükənməyən nəsihətlərimizin yerinə sevgi ilə yaxınlaşaraq açılan boşluqları bağlamaq bizim əlimizdədir. Biz körpünün bir ayağı, gənclər digər ayağıdır. Körpü birləşsin deyə yerimizdə gözləmək yerinə, digər ayağın yanına gedərək körpüləri birləşdirmək duası ilə ....

Nəzrin HÜSEYNOVA

ONLARIN SEVGİSİ

Həzrət Peyğəmbər Aişə anamıza Üveys (Aişəcik) deyə xitab edərdi:

- Ey Üveys, su! deyərdi.

Tez-tez:

- Aişə, (şeir) beytlərini neylədin? – deyə soruşardı. Mən:

-Hansı beytləri, ey Rəsulallah?! Məndə beyt çoxdur – deyərdim.

- Şükür (haqqında olanları...) – deyə qarşılıq verərdi.

Ailədəki kiçik problemlər, Onun (s.ə.s.) geniş könlündə şirin lətifələrə çevrilərdi. Bir gün Həzrət Əbu Bəkir icazə istəyib Həzrət Peyğəmbərin otağına girdi. Gördü ki, Aişə anamız yüksək səslə Peyğəmbərimizə (s.ə.s.) qışqırır. Həzrət Əbu Bəkr Aişə anamızın yaxasından tutub:

- Ümmü Rumanın qızı, sən Rəsulullaha (s.ə.s.) bağırırsan? – deyə, əsəbləşdi.

Həzrət Peyğəmbər (s.ə.s.) onları ayırdı. Həzrət Əbu Bəkir əsəblə oradan çıxıb getdi. Həzrət Peyğəmbər (s.ə.s.) Aişə anamızın könlünü almaq üçün:

- Görmürsən atanla sənin aranı ayırdım. – dedi.

Əsəbi sakitləşən Həzrət Əbu Bəkir icazə alıb yenidən içəri girdikdə onların gülüşdüyünü gördü. Və:

- Ey Allahın Rəsulu, məni savaşınıza ortaq etdiyiniz kimi barışınıza da ortaq edin – dedi.

Ümmü Ruman və Həzrət Əbu Bəkrin qızları Aişəyə sərt rəftar etmələrinə Həzrət Peyğəmbərin (s.ə.s.) ürəyi

razı olmaz, bundan narahat olardı. Bir dəfə Həzrət Əbu Bəkir qızı Həzrət Aişəyə əlini qaldırıb sinəsinə vurmuşdu. Onları belə görən Həzrət Peyğəmbər (s.ə.s.) Həzrət Əbu Bəkirə:

- *Bu etdiyinə görə ondan üzr istəməlisən* - buyurmuşdu.

Yenə bir gün Aişə anamızın hücrəsinə bir hərb əsiri gətirmişdilər. Əsir Aişə anamızın qadınlarla məşğul olmasından istifadə edərək qaçmışdı. Rəsulu-Əkrəm əsiri görmək üçün gəlmiş, lakin onun qaçdığını görüb kədərlənmişdi:

- *Aişənin əli qırılsın!* – deyərək əsirin axtarılması üçün bayıra çıxmışdı.

Həzrət Peyğəmbər (s.ə.s.) Aişə anamızın hücrəsinə qayıtdığı zaman o, iki əlini o tərəf bu tərəfə çevirirdi. Rəsulullah (s.ə.s.) ona baxaraq:

- *Dəli olmusan?* – dedi.

Aişə anamız:

- Mənə bəddua etdin. Hansı əlim qırılacaq ona baxıram – cavabını verdi.

Bunu eşidən Həzrət Peyğəmbər (s.ə.s.) belə dua etdi:

- *Ey Rəbbim! Mən bir insanam, insanlar kimi hiddətlənirəm. Ey Rəbbim! Kişi və ya qadın hansı müsəlmana bəddua etsəm mənim bu duamı onun haqqında xeyirə çevir.*

"Rəsulullaha (s.ə.s.) mənim üçün Allaha dua et dedim. O:

- *Ya Rəbb! Aişənin açıq və gizli, keçmiş və gələcək günahlarını bağışla* – dedi. Gülməyə başladım, hətta o qədər güldüm ki, gülməkdən başım arxama düşəcəkdi.

Rəsulallah (s.ə.s.):

- *Duam səni sevindirdimi?* – buyurdu.

- Mənə nə olub ki, Sənin duan məni sevindirməsin – dedim. Rəsulullah (s.ə.s):

- *Bu duam bütün ümmətim üçündür* – buyurdu".

Rəsulullah (s.ə.s.) mənə:

- *Mən sənin mənə əsəbləşdiyin və məndən razı olduğun zamanları bilirəm* – buyurdu.

Mən:

- Bunu hardan başa düşürsünüz? – deyə soruşdum.

- *Məndən razı olduqda mənə: "Xeyr! Muhəmməd sallallahu əleyhi və səlləmin Rəbbinə and olsun!" – deyirsən. Mənə əsəbi olanda isə: "Xeyr! İbrahimin Rəbbinə and olsun! – deyirsən"* – buyurdu.

Mən:

- Düzdü, ey Allahın Rəsulu, mən sadəcə sənin adını tərk edərəm. Sevgin isə könlümdə yaşayar – dedim.

Həzrət Peyğəmbər (s.ə.s.) dəvət olunduğu yerlərə bəzən onu da aparardı. Həzrət Ənəs (r.a.) rəvayət edir:

- Rəsulullahın (s.ə.s.) İranlı bir qonşusu var idi, gözəl ət yeməyi hazırlayardı. (Bir gün) Rəsulallah (s.ə.s.) üçün yemək hazırladı. Sonra dəvət etməyə gəldi. Rəsulallah Aişə anamızı göstərərək:

- *Onun üçün də dəvət varmı?* – deyə soruşdu. Adam:

- Xeyr! – dedikdə,

- *Gələ bilmirəm* – cavabını verdi.

Adam dəvətini təkrarladı. Rəsulullah (s.ə.s.) da:

- *Bəs o?* – deyə Aişə anamız üçün yenidən icazə istədi. Adam:

- Xeyr! – dedi. Rəsulallah (s.ə.s) də:

- *Xeyr!* – cavabını verdi.

Sonra adam yenidən dəvət etməyə gəldi. Rəsulullah (s.ə.s.) da:

- *Bəs o!* deyə təkid etdi. Adam axırda:

- Bəli! – dedi.

Həzrət Peyğəmbər (s.ə.s.) Aişə anamız ilə birlikdə zarafatlaşaraq dəvət olunduqları evə getdilər.

Aişə anamız Peyğəmbərimizə (s.ə.s.) mütləq şəkildə itaət edir, Onun bir dediyini iki etmirdi. Allah Rəsulunun xoşlamadığı bir şeyi, ikinci bir xəbərdarlığa ehtiyac qalmadan evindən atırdı. Həm Peyğəmbərimizin (s.ə.s.) xidmətinə canla-başla çatmağa çalışır, həm də Allah Rəsulunu ziyarətə gələnlərə əllərindəki imkanlar daxilində ikram və ehsan edirdi.

SÜFRƏ

Peyğəmbərimiz (s.ə.s.) yemək y



Yeməkdən əvvəl və sonra əlləri yumaq.

“Kim Allahdan evinin bərəkətinin artmasını istəyərsə, yeməkdən əvvəl və sonra əllərini yusun”



Yemək yeyərkən Allahın adını anmaq.

Allah Rəsulu (s.ə.s.) buyurdu: ***“Hər biriniz yemək yeyərkən “Bilmillah” desin, başda unudarsa “Bismilləhi fi əvvəlihi və axirihi” (başında da, sonunda da Bismillah) desin”***



Yeməyə duz ilə başlayıb, duz ilə bitirmək.

“Yeməyə duz ilə başlamaq və bitirmək yetmiş dərdə dəvadır”

Sağ əl ilə yemək.

Ömər ibn Əbu Sələmədən (r.a.): “Allah Rəsulunun (s.ə.s.) himayəsində olan bir uşaq idim. Əlimi yemək boşqabının hər tərəfinə gəzdirdim”. Bunu görən Peyğəmbərimiz (s.ə.s.) belə buyurdu: ***“Ey oğul! Bismillah de, sağ əlinlə və sənə yaxın olan tərəfdən ye!”.*** Ondan sonra yeməyimi Rəsulullahın (s.ə.s.) buyurduğu kimi yeyirdim.



(İbn Macə), (Əbu Davud, Tirmizi), (Riyazün Nasihin), (Buxari, Müslim, Əbu Davud), (Əbu Davud), (İbn Macə), (Tirmizi), (Buxari, Müslim, Əbu Davud), (Təbərani), (Tirmizi).

ƏDƏBİ

k yeyərkən nələrə diqqət edərdi?



Yeməyi birlikdə yemək.

"Birlikdə yeyin və Allahın adını anın (Bismillah deyin) ki, yeməyiniz bərəkətlənsin"

"İki kişinin yeməyi üç kişiyə, üç kişinin yeməyi də dörd kişiyə çatar"

"Rəhmana ibadət edin, yemək yedirin, salamı çox verin ki, Cənnətə girəsiniz"



Yeməkdə qüsur axtarmamaq.

Əbu Hüreyrə (r.a.) *"Peyğəmbərimiz (s.ə.s.) heç bir yeməkdə qüsur axtarmazdı, ürəyi istəyərsə yeyərdi, istəməzsə yeməzdi"*



Yeməyi qaynar yeməmək.

"Yeməyi soyudun! Çünki isti yemək bərəkətsiz olur"

Az yemək.

"Adəmoğlu qarnından daha təhlükəli bir qab doldurmamışdır. Adəmoğluna belini dikəldəcək qədər bir neçə loğma bəsdir. Əgər çox yemək istəyərsə, mədəsini üçə bölsün: üçdə birini yemək, üçdə birini su, üçdə birini də nəfəsinə ayırsın".



Vüqarə MƏMMƏDOVA

Dəm qazından zəhərlənmənin profilaktikası

Kimyəvi adı karbon-monooksid (CO) olan dəm qazı təmiz halda gözə görünməyən, rəngsiz, iysiz, dadsız, havadan yüngül, suda pis həll olunan qazdır. Dəm qazı natamam yanma məhsulu olub güclü zəhərləyici xassəyə malikdir. Bu qaz üzvi maddələrin, o cümlədən təbii qazın, neft məhsullarının və odun yanacağının natamam yanması nəticəsində əmələ gəlir. Çünki yanma tam getməyəndə dəm qazı karbon qazına çevrilə bilmir. Normal yanma zamanı isə dəm qazı tam yanaraq karbon 4-oksidə çevrilərək tüstü boruları vasitəsi ilə xaric olunur.

Dəm qazı ilə zəhərlənmə daha çox rast gəlinən zəhərlənmələr siyahısında (alkoqoldan, dərman preparatları və narkotik maddələrlə zəhərlənmədən sonra) dördüncü yeri tutur.

Dəm qazı orqanizmə əsasən nəfəsalma zamanı ağ ciyərlər vasitəsilə daxil olur. Nəticədə orqanizmdə hipoksiya (oksigen azlığı) başlayır. Hipoksiya bütün orqanizmin, eləcə də onun ayrı-ayrı üzv və toxumalarının oksigenlə təchizatının pozulmasıdır. Mərkəzi sinir sistemi, ürək, həmçinin böyrək və qara ciyərin toxumaları hipoksiyaya daha çox həssasdır.


İnsanlar yüksək konsentrasiyalı dəm qazı olan mühitdə çox qaldıqda zəhərlənmə daha güclü, ölüm isə bir o qədər sürətli olur. Dəm qazından zəhərlənmə hallarının yuxarıda göstərilən misallarla yanaşı, eyni zamanda avtomobillərdə də baş verməsi mümkündür. Belə ki, avtomobilin qarajda 10 dəqiqə işləməsi şəraitində nəfəs alan adamın qanında karbon-monooksidin miqdarı ölümcül həddə çata bilər. Havada dəm qazının miqdarı 0,08% olduqda başağrısı, başgicəllənmə və boğulma başlayır. Dəm qazının miqdarı nəfəs aldığımız havada 0,32% olduqda 30 dəqiqə ərzində, 1,2% olduqda isə 2-3 dəqiqə ərzində (2-3 nəfəs almadan sonra) ölüm baş verir. Zəhərlənmə zamanı ölümün səbəbi isə tənəffüs mərkəzinin iflici nəticəsində ürəyin dayanmasıdır.

Atmosfer havasına dəm qazı əsasən 2 yolla daxil olur:

1. Təbii mənbələrdən daxil olan dəm qazı.

2. Antropogen mənbələrdən daxil olan dəm qazı.

Təbii yolla dəm qazı əsasən metanın və digər karbohidrogenlərin iştirakı ilə zəncirvari reaksiya şəklində atmosfer havasına daxil olur.



Antropogen mənşəli dəm qazı isə insanların qızdırıcı cihazlardan düzgün istifadə etməməsi nəticəsində əmələ gəlir. Eyni zamanda daxili yanma mühərriklərinin işləməsi nəticəsində əmələ gələn dəm qazı da bu qrupa aiddir.

Dəm qazı ilə zəhərlənmənin səbəbləri:

- suyu qazla qızdırılan duş və vanna otaqlarında nəfəsliklərin olmaması (duş qəbul edən şəxsi nəzarətdə saxlamaq və tez-tez maraqlanmaq vacib şərtdir);
- soba ilə qızdırıcı sistemlərdə texniki təhlükəsizlik qaydalarının pozulması;
- standarta uyğun olmayan və kustar yolla hazırlanmış qızdırıcı cihazlardan istifadə edilməsi;
- sobanın qapağının vaxtında bağlanmaması;
- yanacağa yanma üçün lazımı miqdarda havanın daxil olmaması;
- tüstü çıxarıcı boruların və tüstü bacasının yaxşı işləməməsi;
- sobanın və tüstü çəkən bacanın nasaz vəziyyətdə olması;
- sobada və borularda çatların və nasazlıqların olması;
- insanların yanğın ocaqlarında olmaları;
- qarajda avtomobilin işlək vəziyyətdə olması;
- qapalı yerlərdə, xüsusilə otaqlarda və mənzillərdə hava mübadiləsinin pis olması;

Dəm qazı ilə zəhərlənmənin əlamətləri:

Yünqül dərəcə

1. küt başağrısı
2. başgicəllənmə, gicgah nahiyəsində döyüntü hissiyyatı
3. təngnəfəslik
4. quru öskürək
5. gözdən yaş axma və müvazinətin itməsi
6. sinə və boğaz nahiyəsində ağrı
7. öyümə
8. qusma
9. görmə və eşitmə hallusinasiyaları
10. dəri və selikli qişaların hiperemiyası (qızarması)
11. ürək döyüntüsü
12. Qan təzyiqinin artması

Orta ağır dərəcə

1. yuxuluq
2. hərəkətin məhdudlaşması

Ağır dərəcə

1. huşun itməsi,
2. qıcolmalar
3. psixomotor oyanmalar
4. tənəffüs və ürək sistemlərinin fəaliyyətinin dayanması nəticəsində ölüm.

İlk tibbi yardım:

- təcili olaraq zərərçəkmişə oksigenin verilməsini təmin etmək;
- əgər zərərçəkmişi təmiz havaya çıxarmaq üçün şərait yoxdursa və ya oksigenlə təmin etmək mümkün deyilsə, onda "CO" markalı əleyhqazlardan istifadə etmək olar;
- əgər zərərçəkmiş özündə deyilsə, təcili yardım gələnə kimi ağız boşluğunu qusuntu kütləsindən təmizlədikdən sonra süni tənəffüs vermək lazımdır ki, huşu özünə gəlsin;
- otağı yoxlamaq, qapı və pəncərələri açmaq, qızdırıcı cihazı söndürərək otağı tərk etmək;
- dəm qazının otağa daxil olmasının qarşısını almaq;
- dəm qazından zəhərlənmənin qarşısını almaq üçün soba boruları və bacalar mütəmadi olaraq yoxlanılmalı, qaz cihazları və istilik sistemlərinin sazlığına daim ciddi nəzarət edilməlidir. Belə ki, sobaların tüstü borularının bayıra çıxışı olmalı, otağın havası tez-tez dəyişdirilməli və bacalar il ərzində ən azı bir dəfə təmizlənməlidir.
- adi əleyhqazlar vasitəsilə dəm qazından qorunmaq mümkün olmur. Çünki dəm qazı aktivləşdirilmiş kömürdə udulmur. Dəm qazı olan şəraitdə işlədikdə xüsusi əleyhqazlardan istifadə edilir.

Almalı qurabiyə



Ərzaqlar:
150 qr. kərə yağı
1 yumurta
1 st. pudra şəkəri
2 x.q. qatıq
1 armudu st. duru yağ
1 x.q. sirkə
1 qabartma tozu
1 vanil
4,5 st. un
İçlik üçün:
4 alma
8 x.q. şəkər tozu
1 ç.q. darçın
1 st. xırdalanmış qoz və ya fındıq ləpəsi

Hazırlanması:
İlk olaraq tavaya almaları rəndələyib şəkər tozunu və ləpəni əlavə edib suyu çəkilənə qədər bişiririk. Darçın əlavə edib qazı söndürürük. Undan başqa digər ərzaqları qarışdırıb az-az unu əlavə edərək ələ yapışmayan bir xəmir hazırlayırıq. Limon sıxana streç sərib xəmirdən bir parça götürürük. Ortası boş qalacaq şəkildə əlimizlə yanlara yayırıq. İçinə almalı qarışıqdan qoyuruq, üzərini təkrar xəmir ilə bağlayırıq. Tərsinə çevirib soba listinə qoyuruq. Bu şəkildə xəmir qurtarana kimi davam edirik. 170 dərəcə isinmiş sobada üzəri çox az qızarana kimi bişiririk. Üzərinə pudra şəkəri səpib servis edirik. Nuş olsun!

Toyuq supu



Ərzaqlar:
3 x.q. kərə yağı
Yarım stəkan un
2 x.q. tomat pastası (1 pomidor, 1 bibər)
2 ədəd limon suyu
Toyuq (qaynadılıb didilmiş)
Toyuq suyu
Duz, istiot

Hazırlanması:
Qazana kərə yağını qoyub əridirik. Əridikdən sonra unu əlavə edib qarışdırmağa davam edirik. Sonra tomat və bibər pastasını da əlavə edib soyumuş toyuq suyundan az-az töküb qarışdırırıq. Duz və istiotunu da vurub qaynamağa yaxın toyuq ətini də əlavə edirik. Qaynayanda qazı söndürürük, yeməyimiz hazırdır. Nuş olsun!

Tərs dolma

Ərzaqlar:
1 kq. toyuq filesi
400 qr. quyruq
2 ədəd baş soğan
1 dəstə keşniş
1 dəstə şüyüd
1 dəstə nanə
1 dəstə yaşıl sarımsaq
100 qr. yumru düyü
100 qr. kərə yağı
Duz, istiot



Hazırlanması:
Toyuq fileni nazik uzun hissələrə ayırırıq. Sonra taxtanın üzərinə streç çəkib filedən qoyuruq. Üzərinə təkrar streç sərib ətdöyən ilə nazikləşdiririk. İçlik üçün quyruğu, soğanı və göyərtiləri xırda doğrayırıq. Sonra düyü, duz, istiot, kərə yağını da əlavə edib qarışdırırıq. Toyuq filesini açırıq içlikdən qoyub bükürük. Qurtardıqdan sonra qazana yığıb üzərinə bir stəkan qaynar su əlavə edib bişməyə qoyuruq. Təxminən bir saat bişiririk. Yeməyimiz hazırdır. Nuş olsun!

Saxsıda küftə

Ərzaqlar:
Küftə üçün:
Yarım kilo qiymə
2 dilim bayat çörək
1 ədəd rəndələnmiş soğan
Nanə qurusu, üyüdülmüş
razyana
Duz, istiot
Qızartmaq üçün duru yağ
Üzəri üçün:
Rəndələnmiş holland pendiri

Sousu üçün:
3 ədəd pomidor
Yarım yemək qaşığı
tomat pastası
3 diş sarımsaq
Kəklikotu, duz
Kərə yağı



Hazırlanması:
Küftə ərzaqlarını dərin qaba qoyub yoğururuq. Qoz böyüklükdə parçalar götürüb yumurlayırıq. Küftələri soyuducuda yarım saat saxlayırıq. Sonra küftələri tavada qızğın yağda hərtərəfli qızardırıq və saxsılara eyni ölçüdə qoyuruq. Pomidorun qabıqlarını soyub xırda-xırda doğrayıb balaca bir qazana tökürük. Kərə yağını və küftələr qızardılan yağdan da bir-iki qaşıq əlavə edib biraz bişiririk. Tomat pastası, sarımsaq, duz, kəklikotu əlavə edirik. Pomidorları yumşalana qədər bişiririk. Sonra eyni ölçüdə küftələrin üzərinə tökürük, 250 dərəcə isinmiş sobada 20 dəqiqə bişirdikdən sonra sobadan çıxarıb üzərinə holland pendiri səpib təkrar sobada üzəri qızarana kimi bişiririk. Nuş olsun!

Kəmalə HÜSEYNOVA



Təbii dərman – Məkkəgülü

Xalq arasında Məkkəgülü kimi tanınan bu bitkinin sağlamlıq baxımından min bir faydası var. Onun bədənə şəfa verdiyi və təravətləndirdiyi elmi araşdırmalarla da sübut edilmişdir. Nar çiçəyi, hibiskus, əmbər çiçəyi kimi fərqli adları olan Məkkəgülü əvvəllər Sudan çöllərində yetişirdi, amma indi tropik və subtropik ölkələrdə də yetişdirilir. Yamayka, Cənubi Amerika, Meksika, Mərkəzi Amerika və Karib adalarında bu bitkiyə çox rast gəlmək olar. Əksər ölkədə zəncəfil ilə qarışdırılaraq istifadə edilir, isti ya da soyuq içki olaraq içilir. Ondan susuzluğu aradan qaldıran və Sudanda ənənəvi sayılan içki hazırlanır. Bu bitkidən hazırlanan çayın qış aylarında bədən üçün xüsusi faydası vardır. Məkkəgülü bitkisinin dəmləməsini bütün qış boyu içə bilərsiniz. Bu, həm xəstəliklərdən qorunmanıza kömək edər, həm də bədəninizə istilik verər.

Faydaları:

- Qan şəkərini tənzimləyir;
- Dəridəki ölü hüceyrələri təmizləyir;
- Təzyiqi normallaşdırır;
- Böyrək iltihabı üçün faydalıdır;
- Qrip və öskürəyi aradan qaldırır.
- Sidikqovucu xassələrə malikdir, öd ifrazını stimullaşdırır, qara ciyəri xoşagəlməz təsirlərdən qoruyur.
- Sakitləşdirici, südəməlegətirici xassələrə malikdir, orqanizmin ümumi möhkəmlənməsinə kömək edir.
- Məkkəgülü maddələr mübadiləsini aktivləşdirir və əgər lazım olan miqdardan artıq yemək yeməsəniz, bir ay ərzində, sağlamlığınıza zərər gəlmədən, 2-4 kiloqrama qədər arıqlamanıza kömək edir.
- Təbabət alimlərinin dediyinə görə, məkkəgülünün tərkibindəki bəzi maddələr və bir sıra mikroelementlər bədxassəli şiş törəmələrinin yaranmasının qarşısının almağa qadirdir.
- Məkkəgülü C vitamini ilə zəngindir. Bu vitamin sayəsində qış aylarında bir çox xəstəliklərin yaranmasını əngəlləyir.
- Soyuqdəymə və temperaturun aşağı düşməsində şəfalı təsirlərə malikdir.

Gündə 1-2 stəkan içilməsi şikayətlərin azalmasına səbəb ola bilər.

Məkkəgülü çayının hazırlanması:

Məkkəgülü çayını ərəblər bütün xəstəliklərin dərmanı adlandırırlar. Sözsüz ki, bu içkinin belə qiymətləndirilməsi təsadüfi deyil. Öz zəngin tərkibi ilə məkkəgülü çayı bir çox dərdlərin təbii dərmanıdır. Məkkəgülü çayının dəmlənməsi olduqca sadədir. Eynilə qara çayı dəmlədiyiniz kimi, qaynayan suyun üzərinə bir miqdar Məkkəgülü əlavə edin və dəmlənməyə qoyun. Təxminən 3 dəqiqə sonra çay hazır olacaq. Maraqlıdır ki, məkkəgülü çayı isti halda arterial təzyiqi artırır. Soyuq halda isə rahatlıqla təzyiqi endirir.

Böyrək xəstəliklərinə, yüksək təzyiqə, yaşlanmağı gecikdirməyə böyük faydası vardır. Eyni zamanda immunitet sisteminizin güclənməsini təmin edir.

Məkkəgülü çayını, doğumdan sonra ilk günlərdə istifadə etmək faydalıdır. Bu çay sakitləşdirici xassələri sayəsində doğuşsonrası depressiyanı aradan qaldırır, bağırsağın işini yaxşılaşdırır, ana südünü artırır və onun sakitləşdirici xassələri südlə körpəyə ötürülür, immuniteti bərpa edir.

Məkkəgülü çayını isti, həm də soyuq halda içirlər. Soyuq halda içilən zoğalı rəngli bu çay, ağır yeməklə dolu ziyafət sürəfsindən sonra mədədəki ağırlığı yüngülləşdirmək üçün faydalıdır. Onu içən kimi baş ağrısı və qarın nayihəsindəki ağırlıq tez yüngülləşir.

Məkkəgülü şərbətinin hazırlanılması:

300 qram məkkəgülü 1 litr adi suda 5-6 saat saxlanılır, sonra süzülür, məkkəgülünün həm dadı, həm də rəngi suya keçir, sonra üzərinə 4 litr su əlavə olunur zövqə görə limon darçın və ya zəncəfil əlavə edə bilərsiniz, sonra yenə də zövqə görə bal və ya şəkər tozu qarışdırıb içə bilərsiniz. Xatırladım ki, susuzluğu yatırmaq və dadına görə əla bir içkidir.

Əks göstərişlər

Məkkəgülü çayı ekoloji təmiz məhsuldur. O, 1 yaşınadək uşaqlar istisna olmaqla bütün yaş qruplarından olan insanlara tövsiyə olunur. Məkkəgülü çayının faydalarına baxmayaraq, kəskin qastritdən, mədə xorasından, xroniki böyrək xəstəliklərinin kəskinləşməsindən, öd kisəsində və sidik kisəsində daş xəstəliklərinin kəskinləşməsindən əziyyət çəkən insanlara istifadə etmək tövsiyə olunmur.

Məkkəgülü çayını və ya şərbətini yeməkdən sonra içməyiniz məsləhətdir, çünki mədəyə qıcıqlandırıcı təsiri ola bilər. Qastritlər zamanı içilməsi məsləhət deyil. Hamiləlikdə və südvermə zamanı çox az istifadə olunmalıdır.



Sevinc VƏKİLOVA

SÜD ANASI (RƏDA)



Rəda ərəb mənşəli söz olub, *"uşağın anasından süd əmməsi"* mənasını daşıyır.

Yeni doğulan körpənin ən mühüm qidası ana südüdür. İslam dini də yeni doğulan uşağın müəyyən bir müddət ana südü ilə qidalanmasına əhəmiyyət vermiş, doğma ananın hər hansı bir səbəblə uşağı əmizdirməməsi halında süd anaya verilməsini zəruri hesab etmişdir. Qədimdə ərəblər uşaqlarını, adətən, iki yaşına qədər süd anaya verirdilər. Uşağın ana südü ilə qidalanması əsas götürülməklə yanaşı, ana uşağa süd verməyə məcbur edilə bilməz. Yalnız üç halda ana məcbur edilər:

1. Uşağın öz anasından başqasının südünü əmməməsi

2. Başqa süd ananın tapılmaması

3. Uşağın atasının olmaması, qadının da başqa süd ana tutacaq maddi imkanının olmaması.

Qurani – Kərimdə uşağa süd əmizdirməyi əmr və təşviq edən ayələrlə yanaşı, əmizdirməyi nizamlayan bəzi hökmlər də vardır. Xüsusilə də evlənmə məsələsində qohumlara qadağalar qoyulmuşdu.

Ayəyi kərimədə ***"...süd analarınız, süd bacılarınız, arvadlarınızın anaları, ögey qızlarınız ilə evlənmək sizə haram edildi"*** (Nisa 23) buyurulur.

Peyğəmbərimiz (s.ə.s.) də *"Nəsil baxımından haram olanlar, süd baxımından da haram sayılırlar"* - demişdi (Müslim, Rəda, 1).

Süd qohumluğunun meydana gəlməsi üçün aşağıdakı şərtlər olmalıdır:

1. Körpənin içdiyi süd bir qadına aid olmalıdır. Alimlərin çoxunun fikrinə görə qadının evli və ya subay olması, yaxud ərinin olmaması nəticəni dəyişdirmir. Əgər süd başqa bir maye ilə qarışarsa süd qohumluğu meydana gəlmir.

2. Süd içən uşağın mədəsinə çatmalıdır. Südün birbaşa anadan və ya başqa bir qabdan içilməsi nəticəni dəyişmir. Uşaq südü əmər, ancaq südün uşağın mədəsinə gedib getməməsində şübhə olarsa, o zaman süd qohumluğu meydana gəlmir. Çünki şübhə ilə hökm sabit olmaz.

3. Süd mədəyə ağız və ya burun yolu ilə çatarsa, süd qohumluğu meydana gələr. Ancaq qulağa damladılan süd boğaz yolu ilə udularsa süd qohumluğu meydana gəlməz. Çünki qulaq qidalanma orqanı deyil.

4. Süd başqa bir maye ilə qarışdırılmamalıdır. Əgər südə hər hansı başqa bir mayə qarışarsa hənəfi məzhəbinə görə süd qohumluğu meydana gəlmir. Çünki qarışan qida südün tərkibini və təsirini dəyişir.

Bu gün tibb elmi də ana südünün başqa bir qida maddəsi ilə qarışdırılarkən tərkibinin dəyişəcəyi barəsində İslam alimləri ilə eyni fikri qəbul edirlər.

Süd qohumluğunun meydana gəlməsində süd içən körpənin yaşı da mühümdür. Doğumdan etibarən iki il müddətində (iki yaşa qədər) uşaq başqa bir qadından, hənəfi məzhəbinə görə bir udum da olsa süd içərsə, süd qohumluğu meydana gəlir. Çünki ayədə ***"Analar, uşaqlarını tam iki il əmizdirərlər"*** (Bəqərə, 233)buyurulmuşdur. Hədisdə *"Süd qohumluğu yalnız iki yaşa qədər əmizdirilən südlə meydana gəlir"* - buyurulur.

Süd qohumluğu mütləq evlənmə maneəsi yaradır. Süd qohumları bir - birinə yad (naməhrəm) sayılmırlar. Süd ana ilə evli olan kişi süd ata sayılır. Süd atanın ölümü və ya süd anadan boşanmış olması nəticəni dəyişdirmir. Süd əmən uşağa bu süd ata ilə qan və evlilikdən meydana gələn qohumları haram (evlənmələri) sayılır. Süd ataya aid uşaqların hamısı süd əmən uşağın qardaşları sayılır. Süd əmməklə bir qohumluq yaransa da, bununla nəfəqə, miras, vardövlət vəlayəti kimi digər hökümlər yaranmır. Bu səbəbdən süd ana süd övladından nəfəqə istəyə bilməz, onun mirasçısı ola bilməz və bu uşaq üzərində vəlayət iddası irəli sürə bilməz.